SƏRXAN CARÇI

TÜRK İSLAM SEVDALI

AZƏRBAYCAN BAYRAĞI

“Elm və təhsil”
Bakı – 2020

Redaktor
və ön sözün müəllifi:
Nigar Gözəlova
T.ü.f.d. , dosent, Dövlət mükafatı laureatı

Sərxan Carçı
Türk İslam sevdalı Azərbaycan bayrağı.
Bakı, "Elm və təhsil", 2020, 144 səh.

Kitabda üçrəngli bayrağımızın elan olunduğu gündən günümüzə qədər gəldiyi yoldan və milli bayrağımızın daima dalğalanması üçün özlərini fəda edənlərdən bəhs edilir.

4603000000
qrifli n şr
N-98-2020

© "Elm və təhsil", 2020

Kitabın ərsəyə gəlməsində göstərdikləri maddi və mənəvi dəstək üçün,

London Azərbaycan Evi-nin sədri ***Dr.Əli Təkin Atalara***

Bəyaz Hərəkat başqanı ***Hürrü Əliyevə***

Carçı Araşdırma Mərkəzinin fəalı ***Orxan Carçıya***

təşəkkür edirəm.

ÖN SÖZ

"Biz min müşkülatla bayrağı xalqımızın
başı üzərində dalğalandırdıq"
Məmməd Əmin Rəsulzadə

Azərbaycan ərazisində yaranmış ilk dövlətlərin rəmzlərinin formalaşması və inkişafı böyük tarixə malikdir. Azərbaycanda ilkin bayraqların (ştandartlar) meydana gəlməsi bizim eradan əvvəlki əsrlərə aiddir. Hökmdarların hakimiyyətinin rəmzi mənasını daşıyan, ağ sapa taxılmış və heyvan təsvirləri ilə bəzədilmiş, tunc dövrünə (e.ə. IV-II minilliklər) aid ilk bürünc ştandartlar Azərbaycanda arxeoloji tapıntılar zamanı Şəmkir və Şəki rayonlarında tapılmışdır. Tədricən belə ştandartlar sap və parça hissədən ibarət olan bayraqlarla əvəz olunub.

Zəngin dövlətçilik tarixinə malik olan Azərbaycanda orta əsrlərdə bayraq müxtəlif adlarla: sancaq, tuğ, buncuq, ələm kimi tanınmışdır. Bu anlayışlara "Kitabi Dədə Qorqud" dastanlarında da rast gəlinir. Bunlar Oğuz tayfalarının müqəddəs simvolları sayılırıdı və döyüşçülər həmin rəmzləri hər vaxt öndə daşıyırdılar. İstənilən dövlətin mövcudluğunu onun çoxəsrlik dövlətçilik və tarixi-mədəni dəyərlərini təcəssüm etdirən dövlət rəmzləri olmadan təsəvvür etmək mümkün deyil. Bu zənginliyi özündə əks etdirən rəmzlər sistemi hər zaman mövcud olub və tarixi

inkişaf mərhələsi keçib. Tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində mövcud olmuş qüdrətli dövlətlərin hər birinin müstəqillik rəmzi olan bayraqları, gerbləri, möhürləri, pul vahidləri zəngin dövlətçilik tariximizdən xəbər verir.

Azərbaycan xalqı əsrlər boyu tarixi yaddaşında bu dövlətçilik ənənələrini daim qoruyub saxlamışdır. XX əsrin əvvəllərində milli dövlətçiliyin bərpası çox böyük bir hadisə olaraq Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazıldı. 1918-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra dövlətçiliyimizin atributları yenidən bərpa olundu.

İstedadlı tədqiqatçı Sərxan Carçının təqdim etdiyi bu əsər Azərbaycan Respublikasının dövlət atributlarından, dövlətçilik rəmzlərindən biri olan Üçrəngli Milli Bayrağın – Dövlət Bayrağının tarixinə həsr olunmuşdur. Azərbaycan Dövlət Bayrağı bizim milli müstəqilliyimizin qürur simvollarından biridir. Dövlət rəmzlərinin formalaşmasının tarixinin öyrənilməsi dövlətçilik tarixinin, mədəniyyətin və ideologiyanın inkişaf tarixi haqqında daha dolğun məlumat almağa kömək edir. Bu tarixi prosesləri ətraflı araşdıran müəllif ancaq Azərbaycan Xalq Cümhuriyyəti dövründən yox, hətta AXC süqutundan sonra Sovet işğalı, mühacirət dövründə Üçrəngli Milli Bayrağın Azərbaycan xalqının yaddaşında necə qorunduğu və saxlandığı haqqında geniş məlumat verir. Bundan əlavə, müəllif əsərinin ikinci hissəsində bayrağımızın tarixi ilə bağlı gənc tədqiqatçıların maraqlı məqalələrini toplayıb. Hesab edirəm ki,

təqdim olunan araşdırma Azərbaycan Respublikasının dövlət rəmzlərinin tarixinin öyrənilməsi, onların bütün Azərbaycan vətəndaşları, xüsusən gənclər arasında vətənpərvərlik hisslərinin yüksəlməsinə, maariflənməsinə xidmət edəcək.

Lakin xalqımızın bu üçrəngli bayrağımıza olan sədaqətinə bağlılığının ən yüksək zirvəsini biz bu bayrağın işğal altında olan torpaqlarında Qarabağda dalğalandığı vaxt görəcəyik. Azərbaycan dövlətinin başçısı İlham Əliyevin dediyi kimi "...biz o zirvəni görəcəyik, mütləq görəcəyik...gün gələcək Azərbaycanın Dövlət Bayrağı bu gün işğal altında olan bütün torpaqlarımızda dalğalanacaq".

Heç şübhəsiz hər bir azərbaycanlının ürəyi bu gün bu arzu və ümüdlə vurur!!!

Nigar Gözəlova
T.ü.f.d. , dosent, Dövlət mükafatı laureatı

Üçrəngli, milli bayrağımızın Şuşada dalğalanmağı diləyi ilə...

Müəllifdən

Sayənizdə artıq üçüncü dəfədir sizinlə müəllifi olduğum kitab vasitəsilə görüşə gəlirəm. Sayənizdə - kəliməsini təsadüfi işlətmirəm. Doğrudan-doğruya artıq üç kitab müəllifi olmağımın səbəbkarı sizsiniz. Maddi-mənəvi, bilgi-informasiya dəstəkçiləri və siz oxucular. Göstərdiyiniz maraq hələ indən belə də, bir neçə kitab ərsəyə gətirməyimə səbəbdir.

Cümhuriyyətimizin 100 illiyində üçrəngli milli bayrağımızın da 100 yaşı tamam oldu. Yüz illiyi qeyd olunan gün sosial şəbəkədə bayrağımız barədə doğru-yanlış, dəqiq, həmçinin qeyri dəqiq məlumatlar paylaşdılar. Elə həmin gün bayrağımız barədə doğru məlumatları toplayıb, bir qədər də araşdırma edib, kitab halına salmaq qərarına gəldim.

Düşünürdüm ki, çətin olmayacaq, tez bir zamanda öhdəsindən gələcəm. Amma deyim ki, bu mövzu digər araşdırmalarımdan daha çətin oldu. Araşdırdıqca bayraq mövzusunun düşündüyümdən daha ciddi, daha həssas araşdırma mövzusu olduğu aydınlaşdı.

Həmd olsun ki, bir ildən artıq araşdırmanın nəticəsi olan kitab artıq əlinizdədir. Ümidvaram ki, oxuyub bəyənəcəksiniz, həmçinin zəruri qeydlərinizi bildirəcəksiniz.

Kitab, üzərinizdə az da olsa xoş təəssürat yaradacaqsa, buna görə redaktor Nigar Gözəlovaya və kitabda məqalələri yer alan "Carçı" Araşdırma Mərkəzinin könüllülərinə borcluyuq.



Ey gənclik!
Sənin öhdəndə böyük bir vəzifə var.
Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki:
Bir kərə yüksələn bayraq bir daha enməz!
Əlbəttə ki, sən onun bu ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərbaycan türklərinin yanıqlı türkülərinə mövzu olmuş, ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək,
Böyük Dəmirçinin geri dönüşünü görüncə onun tərəfinə keçəcək, bu yolda ya qazi, ya da şəhid olacaqsan.

M.Ə.Rəsulzadə



CÜMHURİYYƏTİN ELANI

28 Mayıs 1918 Bəyannaməsini nəşr etməklə Azərbaycan – Şurayi Millisi, sözün siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Beyləki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafi və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur.

(Məhəmməd Əmin Rəsulzadə)

Birinci dünya müharibəsindən sonra Rusiyada inqilab baş verdi və imperatorluq dağıldı. Baş verən bu inqilab nəticəsində millətlər öz istiqlalına qovuşdu. Müstəqilliklərindən öncə Ümumrusiya parlamentinin azərbaycanlı, gürcü və erməni deputatları Tiflisdə toplaşaraq yeni qurum - Zaqafqaziya Seymini yaratdılar. Amma seym cəmi bir neçə ay yaşadı.

1918-ci il may ayının 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi və burada Gürcüstanın Federasiyadan çıxmaq haqqında bəyanatı dinlənildikdən sonra Zaqafqaziya Seymi özünü buraxmaq haqqında qərar qəbul etdi.

Elə həmin gün Gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi. Seymin buraxılması ilə yaranmış böhranlı siyasi vəziyyətlə əlaqədar Seymdəki Azərbaycan nümayəndələri mayın 27-də toplaşaraq Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdülər və özlərini Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdilər.

Azərbaycan Milli Şurası mayın 28-də keçirdiyi ilk iclasında geniş müzakirələrdən Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi"ni qəbul etdi.

1918-ci il mayın 28-də Milli Şura Tiflisdə Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul edərək Azərbaycanın müstəqilliyini elan etdi. Mayın 30-da isə istiqlalı bütün dövlətlərə bəyan etdi.

Mənbə:

Qafarov V.V, Şükürov Q.E. Azərbaycan Cümhuriyyəti Tarixi. 1918-1920-ci illər. (Osmanlı arxiv sənədləri əsasında). – Bakı: Elmin İnkşafı Fondu, 2017. – 520 səh.

Qaraca B, Aşırlı A, Istiqlal düşüncələri. Cumhuriyyətə aparan yollar. Bakı, "Zərdabi LTD" MMC, 2018, 384 səh.

CÜMHURİYYƏTİN İLK BAYRAĞININ ELANI

Yol ver Türkün Bayrağına
(Əhməd Cavad)

Beləliklə Şərqdə ilk Demokratik cümhuriyyət elan olunur. Cümhuriyyət elan olunan ilk gündən Azərbaycan xalqının həyatında mühüm olan çox ciddi qərarlar qəbul edildi.

Mövzumuz gərəyincə hökumətin ən önəmli qərar isə dövlət bayrağı haqqında verilən qərar idi. 1918-ci il iyun ayının 21-də Azərbaycanın dövlət bayrağı haqqında qərar qəbul edildi. Həmin qərara əsasən Azərbaycan bayrağı qırmızı rəngli dövlət bayrağının üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir olunmuşdu.

Bu bayraq cüzi fərqlə Osmanlı imperiyasının bayrağına oxşayırdı. Qeyd edək ki, bu bayraq Osmanlı imperatorluğunun XVIII əsrin sonundan XIX əsrin 50-ci illərinədək (Sultan Əbdülməcid hakimiyyətinin son illərində səkkizguşəli ulduz beşguşəli ulduzla əvəz edilmişdi) mövcud olmuş qırmızı rəngli dövlət bayrağının üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir olunmuşdur.

Təbii ki, bu bayraq Azərbaycan dövlətçilik tarixinin ilk bayrağı deyildi.

Tarixi mənbələr, maddi mədəniyyət və incəsənət abidələri sübut edir ki, keçmişdə Azərbaycan ərazisində yerləşən dövlətlərin müxtəlif rəmzləri, həndəsi və nəbati or-

namentlərdən, quş və heyvan təsvirlərindən ibarət nişan və emblemləri, ərəb hərfləri ilə yazılmış xəttatlıq nişanələri – "tuğra"ları olmuşdur.

Məhəmməd Əmin Rəsulzadənin sözləri ilə desək: "1918-ci ildə dünyaya təqdim olunan Azərbaycan hərəkatının ömrü sadəcə bu ildən deyil əlbəttə. Azərbaycan Türk xalqının tarixi gəlişmə seyrində 28 Mayıs 1918 siyasi bir olğunluğun mühum bir mərhələsidir".

Azərbaycan bayrağının tarixi qədimdir. Arxeoloji tapıntılar Azərbaycan ərazisində bayraqların hələ tunc dövründə (b.e.ə IV-II minillik) istifadə edildiyini təsdiqləyir. 5 min illik tarixiə malik və dünyanın ən qədim insan məskənlərindən biri olan bu diyarın ilk dövlət qurumlarından başlamış sonrakı dövrlərdə dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəlmişdir.

Bayraqlar dövlətçiliyimizin ən önəmli əlamətlərindəndir. Qeyd etmək lazımdır ki, Çar Rusiyasının istilasından sonra Azərbaycan xanlıqlarının bir çox dövlət atributları, o cümlədən bayraqları qənimət kimi aparılaraq, Gürcüstan və Rusiya muzeylərinə saxlanılırdı. AXC hakimiyyəti dövründə, 1919-cu ilin aprel ayının əvvəllərində Azərbaycanın dövlətçilik tarixini əks etdirən bayraqların vətənə qaytarılması məsələsi ortaya çıxmış, hərbi nazir, tam artilleriya generalı S.Mehmandarovun göstərişi ilə Baş Qərargah tərəfindən Azərbaycanın Gürcüstandakı attaşesi olan podpolkovnik Məhəmmədbəy Əliyevə Tiflis müzeyində saxlanılan Azərbaycana aid bayraq və başqa dövlətçilik rəmzlərinin Bakıya qaytarılması haqqında Gürcüstan hökumətindən razılıq alınması təklif edilmişdir.

Cümhuriyyət dövründə bu tarixi əmanətlərin geri alınması müzakirə olunsa da çox təəssüf ki, həmin dövrdə məsələ həllini tapmamışdır. Yalnız 1924-cü ildə Tiflisdə yerləşən Qafqaz Hərb Tarixi müzeyində olan Gəncə, Bakı, Şəki, İrəvan və s. xanlıqların bayraqları 1920-ci ildə yaradılmış Azərbaycan Dövlət Muzeyinə (indiki Milli Azərbaycan Tarixi Muzeyinə) təhvil verilmişdir. Elə həmin il Azərbaycan Dövlət Tarix Muzeyi xanlıqlara, çar ordusunda xidmət edən Azərbaycanlı generallara və ayrı-ayrı müsəlman alaylarına məxsus bayraqlar əldə edə bilmişdir.

Qeyd edək ki, Azərbaycan Tarixi Muzeyində Azərbaycan xanlıqlarının bayraqlarından ibarət çox unikal kolleksiya saxlanılır. Buraya Gəncə, Bakı, Şəki və İrəvan xanlıqlarının bayraqları və eləcə də mənsubluğu Cənubi Azərbaycan xanlıqlarına ehtimal olunan daha iki bayraq daxildir.

Azərbaycan xanlıqlarının bayraqları şərq parçasından tikilmiş, əsasən qırmızı rəngdən istifadə edilmişdir. Bayraqların üzəri isə dövlət rəmzləri olan ornamentlərlə bəzədilmiş və "Allahdan kömək və yaxın qələbə", "Mərhəmətli Allahın adı ilə", "Məhəmməd Allahın elçisidir", "Məhəmməd, möminləri müjdələ" kimi dini ifadələr və Quran ayələri yer almışdır.

Mənbə:

Həsənli S. Cümhuriyyət və hüquqi dövlət quruculuğu. Bakı: Azərbaycan, 2018. 407s.

Akademik Əliyev İ.H, Məhərrəmov E.Ə. Azərbaycan Respublikasının dövlət rəmzləri. Yenidən işlənmiş nəşr. Bakı, Nurlan, 2008. – 56 s.

Məhəmməd Əmin Rəsulzadə. Azərbaycan davası. – Bakı "Ay-ulduz" – 1998. 68 səh.

ÜÇRƏNGLİ BAYRAQ

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
(Cəfər Cabbarlı)

Azərbaycan hökuməti qırmızı rəngli, ağ aypara və ağ səkkizguşəli bayraq altında cəmi bir neçə ay (21.06.1918 – 08.10.1918) fəaliyyət göstərdi. Bu aylar ərzində hökumət bir çox önəmli qərarlar qəbul etdi.


15 sentyabr 1918-ci ildə Qafqaz İslam Ordusu paytaxt Bakıda düşmən üzərində zəfər qazandıqdan sonra Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. 17 sentyabrdan etibarən F.X. Xoyskinin rəhbərlik etdiyi hökumət Bakıda fəaliyyətə başladı.

Bu hadisədən bir müddət sonra I Dünya müharibəsinin başa çatması ilə imzalanan Mudros müqaviləsi əsasında (30 oktyabr, 1918-ci il) ingilis qoşunları Bakıya daxil olurdu. F.X. Xoyskinin ingilis qoşunlarının komandanı general Tomsona göndərdiyi teleqramda onların noyabrın 17-də Bakıya daxil olmasına etiraz etmədiyini və bunun Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə mane törətməyəcəyi qeyd edilirdi. General Tomson isə göndərdiyi cavab teleqramında ona təşəkkür edir və qarşılıqlı əməkdaşlığa əsaslanan münasibətin olacağına toxunurdu.

Bu cür gərgin vəziyyətdə hökumət Dövlət Bayrağı ilə bağlı yeni qərar qəbul etdi. Daha dəqiq ifadə ilə desək 21

iyunda elan edilmiş bayraq biraz daha təkmilləşdirilir. Belə ki, qırmızı rəng və ağ rəngli aypara ilə səkkizguşəli ulduz qalaraq bayrağın yuxarı hissəsinə göy, aşağı hissəsinə isə yaşıl rəngli zolaq əlavə edilir. Bu rənglərin ideyası və ideya müəllifləri barədə irəlidə ətraflı bəhs edəcəyik.

Mürəkkəb və gərgin şəraitə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası 1918-ci il noyabrın 9-da hökumətin başçısı Fətəli Xan Xoyskinin məruzəsi əsasında Azərbaycanın yeni üçrəngli – mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində aypara və səkkizguşəli ulduz təsviri olan milli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul edir.



ВЫПИСКА

изъ журнала постановленій Правительства Азербайджана отъ 9-го Ноября 1918 г.

СЛУШАЛИ:

Докладъ Председателя Совѣта Министровъ о національномъ флагѣ.-

ПОСТАНОВИЛИ:

Національнымъ флагомъ признать флагъ, состоящій изъ зеленаго, краснаго и голубого цвѣтовъ съ бѣлымъ полумѣсяцемъ и восьмигранной звѣздой.-

Съ подлиннымъ вѣрно:

Дѣлопроизводитель

Настоящая выписка препровождается Г. Министру Юстиціи для свѣдѣнія.

Ноября "4" дня 1918 г.

гор. Баку.

№ 2248.

Секретарь Правительства

Дѣлопроизводитель

Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs dövlət bayrağımız – milli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada (İndiki Azərbaycan Dövlət Neft Şirkətinin yerləşdiyi, o zamankı neft milyonçusu, məşhur müğənni Seyid Mirbabayevin mülkündə) qəbul edilmiş və qaldırılmışdır.

Yeni bayrağın qəbulunun arxasında bir çox səbəblərin olduğu deyilsə də əsas səbəb 21 iyunda qəbul edilmiş bayrağın eyni ilə Osmanlı bayrağına oxşaması idi. Sona Həsənlinin "Cümhuriyyət və Hüquqi Dövlət Quruculuğu" kitabından oxuyuruq:

" ... o vaxtlar bu qərarı düzgün başa düşməyərək Azərbaycanı Türkiyənin bir parçası hesab edənlər tapılmışdı. Lakin sonralar məlum olduğu kimi, AXC hökuməti 1918-ci il noyabrın 9-da dövlət bayrağının təsvirini dəyişməyi qərara almışdı. Nazirlər Şurasının bu haqda qərarında oxuyuruq: "Yaşıl, qırmızı və göy rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq Milli Bayraq hesab edilsin".

Doğrudan da al rəngli bayrağımızın üç rəngli bayraqla əvəz edilməsinin arxasındakı əsas səbəb Cümhuriyyətin Osmanlı İmperiyasının tərkib hissəsi olaraq qəbul edilməsi idi. Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində yazır: Üç gün əvvəl surəti-məxsusədə göndərilən heyətə ingilis komandanının (Tomsonun) son sözü bu olmuşdu ki: " *Bizim bildiyimiz Azərbaycanın xəlqinin arayi-ümumiyyəsindən doğma bir cümhuriyyət yoxdur. Yalnız Türk komandanlığının intiriqası ilə təşəkkül etmiş bir hökümət var. Madam ki, siz bunun əksini iddia ediyorsunuz, o halda gəlir, məhəllində tədqiq edər, ona görə də qərar veririz*".

Bayrağın elanı və bu tip tədbirlərin nəticəsi olaraq Rəsulzadə yazının davamında yazır: "*İxrac bilahadisə icra edildi. Azərbaycan bayrağı ilə müzəyyən körpüyə çıxan Tomsonu Xariciyyə Naziri müavini salamladı. Müqabilində Tomson kəndisini hərbi-ümuminin xitamı və sülhün iadə etmək üzrə bulunduğu ilə təbrik etdi*".

Bərabər enli, üç üfüqi zolaqdan ibarət Azərbaycan bayrağının yuxarı zolağı göy, orta zolağı qırmızı, aşağı zolağı yaşıl rəngdədir. Qırmızı zolağın ortasında, bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın enin uzunluğuna nisbəti 1:2-dir.

Cümhuriyyət süqut edənə qədər məhz bu üçrəngli bayraq altında fəaliyyət göstərdi. Cümhuriyyətin var olduğu 23 ay ərzində ən önəmli qərarlar da üçrəngli bayraq altında verildi.

Üçrəngli dövlət bayrağı ilk dəfə 17 noyabrda, general Tomsonun qarşılanmasında istifadə edilmişdisə, bayrağın daha təntənəli təqdimatı milli parlamentin açılışında oldu. 8 dekabr 1918-ci il tarixli rəsmi "Azərbaycan" qəzeti yazır: *"Nikolayevski küçədə iki zirehli avtomobil dayanmış, küçədə ingilis və Azərbaycan fəxri qarovulu durub Bazarını küçədən Persidskiyədək, Nikolayevskidən şəhadətnaməsi olmayanı buraxmıyorlar. Parlaman binasının qapısından salonadək qarovullar durub, küçədən salonadək xalılarla bəzənmişdir. Parlaman binasının üstündə və lojada Azərbaycan bayrağı vurulmuşdur. Tamaşaçılar üçün təyin edilmiş yerlər doludurlar. Tamaşaçılar içində bir çox xanımlar dəxi vardır. Ümumiyyətlə ruh yüksəkliyi hökmfərmadır".*





Parlamenti açan Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə geniş təbrik nitqi söyləyir. Dillər əzbəri olan "Bir kərə yüksələn bayraq bir daha enməz!" ifadəsi də həmin nitqdə yer almışdı:

" ... Cəbr ilə qəbul etdirilən bir şeydə səadət olmaz. Çünki səadət və hürriyyət istiqlaldır (Alqışlar). İştə bunun üçün əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üçboyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı - əhrarınəsini təmsil edən bu üçboyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. ***Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir****. (Məbuslar yerindən qalxır, şiddətli alqışlar uzun müddət davam edir). Mən buna inanıram. Mənim bu imanımı millətlərin qəlbində doğmuş olan əməl günəşi işıqlandırır. Bu günəş bir daha üful etməyəcək. Mən vicdani bəşəriyyətə inanıram...".*

İllər sonra Rəsulzadə mühacirətdə olanda həmin günü xatırlayaraq yazacaqdı:

"Azərbaycan məclisi-məbusanı açılıyordu. Böyük bir cəmiyyətin hüzuru ilə açılan məclisdə söylənən nitq iftitahi xitamında Azərbaycan bayrağına xitabən söylənən "Bir kərə yüksələn bayraq bir daha enməz" şüarı həyacanlı və sürəkli alqışlarla qarşılanaraq yeni bir həyatə giriliyordu".

Parlament formalaşdırılan zaman Bakıda yaşayan ruslar və ermənilərin təhriki ilə Tomson qərar vermişdi ki, bayraq iclas olmayanda binanın üzərindən götürülsün. Deməli həftənin birinci, dördüncü günləri indiki Əlyazmalar İnstitunda Azərbaycan parlamentinin iclasları keçirilirdi.Saat 1-də iclas başlayırdı, bayrağı taxırdılar, axşam saat 7-də iclas bitən kimi ingilislər deyirdi ki, bayraq götü-

rülsün. Rəsulzadə yazırdı: *"Biz min müşkülatla bayrağı xalqımızın başı üzərində dalğalandırdıq".*

Azərbaycan Nümayəndə heyətinin Parisdəki səkkiz aylıq gərgin və səmərəli fəaliyyəti öz bəhrəsini verdi. 1920-ci il yanvar ayının 11-də Müttəfiqlərin Ali Şurası bu məzmunda bir qərar qəbul etdi: "Müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökümətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar". Bununla da Azərbaycanın müstəqilliyi de-fakto olaraq Paris Sülh kofransı tərəfindən tanındı.



Yanvarın 15-də Azərbaycanın de-fakto tanınması barədə Paris Sülh konfransının qərarı Əlimərdan bəy Topçubaşova təqdim edildi. Həmin günlərdə Fransa, İngiltərə, İtaliya, Amerika və digər Qərb ölkələrinin mətbuatı Azərbaycanın tanınması ilə bağlı çoxlu yazılar vermişdilər. Onlarla jurnalda gedən məqalələrdə Azərbaycanın

Versal Ali Şurası tərəfindən tanınması böyük hadisə kimi dəyərləndirilirdi.



Bu münasibətlə yanvar ayının 14-ü saat 10-da Bakıda bayram şənliyinin, 12-də isə parlament iclasının təntənəli açılışı oldu. Çoxsaylı çıxışlardan sonra, iclasın sonunda Azərbaycanın müstəqilliyinin tanınması münasibəti ilə aministiya elan etmək haqqında hökümətin qərarını ədliyyə naziri Xəlil bəy Xasməmmədov oxudu.

Bu müddət ərzində ölkələrlə diplomatik münasibətlərin əsası qoyuldu. Cümhuriyyət hökuməti bir çox ölkədə öz diplomatik səfirlik və konsuluqlarını yaratmış, həmçinin ölkələrin səfirlik və konsulluqlarının Azərbaycanda fəaliyyətini təmin etmişdir.



1920-ci ilin yanvar ayında Azərbaycanın müstəqilliyinin Paris-Sülh konfransında de-fakto tanınmağına baxmayaraq, Sovet Rusiyası Azərbaycanı işğal etdi. Aprel ayının 27-də parlamentdə keçirilən son iclasda Cümhuriyyət süquta uğradı. Sovetlərin gördüyü ilk iş üçrəngli milli bayraqları endirmək oldu.

M.Ə.Rəsulzadə deyirdi: "...Yazıqlar olsun ki, biz "Bir kərə yüksələn bayraq bir daha enməz" idealına etdiyimiz afərinləri unutduq, canımız və malımız qorxusundan bu istiqlal bayrağını qırmızı bezə dəyişdik".

"Azərbaycan Cümhuriyyəti" əsərində isə Rəsulzadə yazır ki: "Nisanın 28-dən etibarən üç rəngli Azərbaycan bayrağı qismən Qızıl Sovet və qismi-əzəmi də Osmanlı bayrağına əvəz edilmişdi". Amma bəlli olduğu kimi razılaşmanın əksinə olaraq, Anadoluya getmək adı ilə Bilə-

cəri stansiyasına yaxınlaşmış ordu Bakıya daxil oldu. Bolşeviklər imzalanmış müqavilənin heç bir bəndinə əməl etmədilər. Bununla da Azərbaycanın Rusiya tərəfindən yenidən işğalı gerçəkləşdi. 23 aylıq istiqlala son qoyuldu və milli hökümət fəaliyyətini dayandırdı.

1920-ci il aprelin 28-də Azərbaycan İctimai Şuralar Cümhuriyyəti (Azərbaycan SSR) yaradıldı. Milli dövlətçiliyimizi əks etdirən bütün rəmzlər ləğv edildi və sovet simvolları ilə əvəz olundu.

İlkin mərhələdə hətta Sovet tarixşünaslığının özündə 28 aprel hadisəsi çevriliş, sonradan inqilab kimi qələmə verilmişdi.

İşğaldan sonra Türkiyəyə və digər ölkələrə sığınıb, mühacir həyatı yaşamaq məcburiyyətində qalan Cümhuriyyət qurucularımız 27 aprel tarixini "Milli matəm günü" olaraq anır və bir-birilərinə baş sağlığı verirdilər. 1950-ci ildə M.Ə.Rəsulzadə yazdığı məktublardan birində deyirdi: *"Otuz il öncə - 27 apreldə əsrlik istiladan sonra istiqlalına yenicə qovuşmuş Yurdumuza endirilən zərbənin dinməz acısı qurtuluş və hürriyyət həsrəti ilə çırpınan bütün ürəkləri sızlatmaqda və bu sızılar intiqam əzmini daim həssas və diqqətdə saxlamaqdadır... Yeni bir 28 maya qovuşa bilməmiz üçün, şübhəsiz, hissən və mənən qüvvətli olduğumuz kimi, təşkilatlanmada da yararlı olmamız gərəkdir ki, bunun ilk şərti mənəviyyatları qüvvətli aydın və yurddaşların milli ənənələri sadiq qalaraq, istiqlal bayrağı altında birləşmələridir..."*



Ə.M.Topçubaşovun dəfni (İstiqlal muzeyinin fondu)

Mənbə:

Nasiman Yaqublu. Cümhuriyyət Qurucuları. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, 504 səh.

Akademik Əliyev İ.H, Məhərrəmov E.Ə. Azərbaycan Respublikasının dövlət rəmzləri. Yenidən işlənmiş nəşr. Bakı, Nurlan, 2008. – 56 s.

Həsənli S. Cümhuriyyət və hüquqi dövlət quruculuğu. Bakı: Azərbaycan, 2018. 407s.

Məhəmməd Əmin Rəsulzadə. "Azərbaycan Cümhuriyyəti". – Bakı: Elm, 1990. – 116 səh.

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar). I cild. – Bakı, "Azərbaycan" nəşriyyatı, 1998. – 976 səh.

"Azərbaycan Paris Sülh Konfransında" (1919-1920) Bakı, "Ozan", 2008.səh.

"Paris məktubları", Bakı, Azərnəşr, 1998, 120 səh.

Mühacirət irsimizdən: Məhəmmədəmin Rəsulzadənin otuz məktubu. Bakı, 2018, 136 səh.

C.P.Həsənli. Sovet dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939). Bakı, "ADİLOĞLU" nəşriyyatı – 2012, -656 səh.

ÜÇRƏNGLİ BAYRAĞIMIZIN İDEYASI VƏ İDEYA MÜƏLLİFLƏRİ

Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
(Bəxtiyar Vahabzadə)

Bayrağımızın daşıdığı ideyanı, məfkurəni böyük dramaturqumuz, Cümhuriyyət dövründə milli parlament iclaslarının stenoqrafı Cəfər Cabbarlı kimi heç kimin söyləmədiyini düşünürəm:

Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə söyləmək!
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yulduz da səkkiz hərli OD YURDU
Əsarətin gecəsindən flirsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur.
Şu hilal da türk bilgisi, düzgün sevgi nişani,
Yurdumuzu qucmuşdur!
(Əski əlifba ilə Azərbaycan kəliməsi səkkiz hərflə yazılırmış)

Əksər araşdırmaçıların, tənqidçilərin razılaşdığı kimi bayrağımızın ideya müəllifi **Əli bəy Hüseynzadədir.** Bütün mənalı həyatını türkçülüyə, turana, islamlaşmağa,

avropalaşmağa həsr edən Əli bəy Hüseynzadə 1864-cü ildə Azərbaycanın Səlyan qəsəbəsində anadan olub. İlk təhsilini "Tiflis Türk-Müsəlman məktəbi"də alan Əli bəy Hüseynzadənin yetişməsində Qafqazın o dövrdəki Şeyxülislamı olmuş ana babası Şeyx Əhməd Səlyaninin xüsusi xidmətləri olmuşdur. Çağdaşı Ziya Göyalpın yazdığı kimi Əli bəyin yetişməsində eyni zamanda Azərbaycanın böyük mütəfəkkiri Mirzə Fətəli Axundovun və Şeyx Cəmaləddin Əfqaninin böyük rolu olmuşdur.

Türkləşmək, İslamlaşmaq, Müasirləşmək (Avropalaşmaq) ideoloji sisteminin yaradıcısı olan Əli bəy Hüseynzadə hər şeydən öncə Hürriyyətpərvər insan idi. Bu mövzuda "Hürriyyət", "Hürriyyət və vətəni-Firdovsi" məqalələrini yazaraq buyurur: *"Hürriyyət!... O nə qüvvədir ki, yalnız zikri belə inşirahi-dərunə, səfayi-qəlbə badi oluyor. Zehinləri, fikirləri, xəyalları, bəşərin bütün ruh və mənəviyyatını ülviyyata sövq ediyor!... Yalnız zikrini eşidən insanların qanadlanıb uçacaqları, balalara pərvaz edəcəkləri gəliyor!...". Digər məqaləsində isə "Hürriyətin aldığı yerlərə istibdad girəməz!"deyir.*

Zəngin bilgisinin və xidmətlərinin nəticəsidir ki, Əli bəy hələ öz sağlığında Abdulla Cövdət, Ziya Göyalp və digər müasirləri tərəfindən "Yalavac" (peyğəmbər, rəsul, elçi) ləqəbini qazanmışdı.

Araşdırmaçılar Ə. Hüseynzadədən üçrəngli bayrağımızın ideoloqu olaraq danışarkən onun daha çox "Türklər kimdir və kimlərdən ibarətdir" və "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" əsərlərinin adını çəkirlər. Doğrudur, "Türklər kimdir və kimlərdən ibarətdir"əsərində müəllif

türklərin tarixindən geniş yazır, türk qollarının hansının (oğuzların) daha qədim olmağından, hətta qədim türklərin çöhrəsindən (üz cizgilərindən) bəhs edir. Eyni zamanda bu əsərində müəllif türk dilini ərəb dili və digər dillərlə müqayisə edərək türk dilinin qramatikasının üstünlüyünü geniş izah edir. Əsərdə həmçinin Kutatku Bilikdən, Orxon və Yenisey abidələrindən, türklərin qədim xəttlərindən və əlifbalarından bəhs edir. Tədqiqatçıların da yazdığı kimi Türk kimliyini Azərbaycanda ilk dəfə elmi nəzəri şəkildə Ə.Hüseynzadə "Türklər kimdir və kimlərdən ibarətdir" əsərində ortaya atmışdır.

Ümumən Əli bəy Hüseynzadə türk dünyasının ən böyük türkçülərindən biri kimi tanınır və Azərbaycanda türkçülük Ə.Hüseynzadə və onun baş mühərriri olduğu mətbuat orqanlarının adı ilə bağlıdır.

"Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" məqaləsində yaşıl rəngi islam dini ilə əlaqələndirən Əli bəy yazının əvvəlində "Dekadentizm" adlı elmin izahını verir. Dekadentizmi (rənglərin, simvolların ifadəsini) müəllif belə açıqlayır:

" "Füyuzat"ın dördüncü nömrəsində, Zahid bəy Şamilin qeyrətlə Moskva şəhərində çıxacaq "Tərbiyeyi-ətfal" məcmuəsinə dair bir elanın başında kiçik bir şəkil görürsünüz. Sizə deyirlər ki, bu şəkilin xütut və nüquşu dekadent üsulundadır... Dekadentlər diyorlar ki, biz "ləb" demədən siz "ləbləbiyi" anlamalısınız, biz gözlə görülməyəcək, qulaq ilə eşidilməyəcək şeyləri sizə bir-iki qısa söz ilə göstərmə-

yə, eşitdirməyə çalışacağız, siz də öz qüvvəyi-müdərrikənizlə, surəti-intiqalınızla görüb eşitməyə çalışınız".

Bu yerdə xüsusi ilə qeyd etmək yerinə düşür ki, Əli bəy Hüseynzadə həm də rəssam idi. Rənglərin sirrini, dilini, nəyi ifadə edə biləcəklərini çox yaxşı bilirdi. Hesab edirik ki, bayrağımızın ideya müəllifi kimi tanınmasında əsas səbəblərdən biri də məhz elə rəssam olmağıdır. (Əli bəy həm də həkim və musiqiçi idi).

Araşdırmalarımız onu göstərdi ki, Ə. Hüseynzadənin mövzuya ən yaxın yazısı "İntiqad ediyoruz, intiqad olunuyoruz" məqaləsidir. Digər yazılarından fərqli olaraq burada müəllif üçlü formulun prinsiplərinin adını yan-yana çəkir. "Çirkaba daş atma, üzərinə sıçrar!" prinsipini əsas götürüb çirkaba daş atmaqdan qorxanlara Əli bəy belə səslənir: "Çirkablara daş atılmalıdır, həm də doluncaya, yox edilincəyə, ortadan vücudları qaldırılıncaya qədər daş atılmalıdır, mümkün qədər böyük daşlar atılmalıdır, qayalar yuvarlatmalıdır. Daş, qaya kafi deyildir. Oraları tibbin tövsiyə etdiyi zəhərli-zəhərli mikroböldürücü məvaddi-əfniyyə ilə doldurmalı, üzərinə neft qazı tökməli, sonra da atəş yağdırmalı, ta ki, üfunətdən, üzviyyati-sariyyəsindən bir əsər qalmasın! Fədai lazımdır, fədai! Yuxarı sıçrayan murdarlıqlardan qorxmayan fədai! Türk qanlı, müsəlman etiqadlı, firənf fikirli, Avropa qiyafətli fədai!".

Müəllif bu yazıda rəhbəri olduğu Füyuzat (xeyir, fayda) dərgisinin də tutduğu yolun bu üçlü formul olduğunu deyir: " "Füyuzat"ın tutduğu yol türklük, müsəlmanlıq, avropalılıqdır. Türk hissiyatı ilə mütəhəssis, islam

dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin olmaqdır".

Göründüyü kimi Əli bəy "Müasirləşmək" deyil, Avropa qiyafəli, avropalaşmaq ifadələrindən istifadə edir. Təbii ki, başqa bir yazısında Əli bəy avropalaşmağın nə olduğunu izah edir: *"Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiraatlarına müraciət etmək istiyoruz, özlərinə deyil. Biz istiyoruz ki, İslam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın. Bu gün onların mədələrində həzm olunmamaq üçün bir çarə var isə, o da onların məhsulati-dəmağiyyələrini alıb həzm etməkdən başqa bir şey deyildir".*

Mütəfəkkirin bu və digər əsərlərində irəli sürdüyü ideyalar əsasında "Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq" ideoloji sistemi yaranmışdır.

Əli bəy Hüseynzadə həm də böyük Turançı idi. Türk dünyasının fikir adamı, sosiologiya elminin və Türkçülüyün banisi Ziya Göyalp "Türkçülüyün əsasları" kitabında yazır: "Rusiyadan gələn Hüseynzadə Əli bəy Tibbiyədə (Tibb məktəbində) türkçülüyün əsaslarını başa salırdı. "Turan" adlı şeri "Turançılıq" ülküsünün-ideyasının ilk ortaya qoyuluşu idi ".

Əli bəy Hüseynzadə 1940-cı ilin mart ayında İstanbulda ürək xəstəliyindən vəfat etmiş və Qaracaəhməd qəbiristanlığında Türkiyənin məşhur şairi Nədimin qəbrinin yanında dəfn edilmişdir.

Bir çox tədqiqatçıların fikrincə Əli bəy Hüseynzadə üçlü formulun şəriksiz lideri deyildir. Formulu ərsəyə gəlməsində Ə.Hüseynzadə qədər **Ziya Göyalpın** da rolu vardır. Üçrəngli bayrağımızın ideya müəlliflərindən biri (bəzi araşdırmaçılara görə birincisi) Ziya Göyalpdır. Ziya Göyalp 1876-cı ildə Diyarbəkirdə dünyaya gəlib. İstiqlal savaşı və Cümhuriyyət dövrü Türkiyəsi, həmçinin bütün türk dünyasının ideoloji, siyasi, sosyal və mədəni həyatında mühüm rol oynayan, Türk aydınlarının bir çoxunun düşüncələrinə istiqamət verən ən böyük fikir adamlarından biridir.

Ziya Göyalp 1918-1922-ci illərdə Türk tarix və mədəniyyətini yeni bir görüşlə incələyərək elmi Milliyyətçiliyin əsaslarını işləyib hazırlamış, elmi ilə yanaşı dünya görüşünü və ideyasını anladan şeirlər yazmış, Türk ədəbiyyatına xalq dilinin, Türk tarix, əfsanə və xalq ədəbiyyatının qapılarını açmış, onları küll halında milli və sosyal mübarizələrin bir sözçüsü halına gətirmişdir.

Ziya Göyalp əsası 1860-cı illərdən Əhməd Vəfiq paşa, Mustafa Cəlaləddin paşa, Əli Suvai əfəndi tərəfindən qoyulan türkçülüyü inkşaf etdirmiş, Əli bəy Hüseynzadə tərəfindən "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" disturunu daha da təkmilləşdirib "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" formasına salmışdı. (Əli Suvai bu üçlü görüşü Ə. Hüseynzadədən də bir az əvvəl irəli sürmüş və müdafiə etmişdir, Əli bəy də "Vəqaye aləmə bir nəzər" məqaləsində onun adını çəkmişdir).

Ziya Göyalpın üçrəngli bayrağımızın müəllifi adlandırılmasının əsas (haqlı) səbəbi onun hər zaman əsərlə-

rində üçlü formuldakı prinsiplərin adını ard-arda çəkməsi və daha dəqiq formada işlətməsidir. Əli bəy Hüseynzadə Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq yazırdısa, Ziya Göyalp Türkləşmək, İslamlaşmaq, Müasirləşmək kimi proqram halına saldı. Ziya Göyalp 1915-1917-ci illərdə bu üç düşüncəni birləşdirib yazılarında bunu əsaslandırırdı. Üç ayrı fikir axımından ibarət bütün bu yazılarını 1918-ci ildə nəşr etdirdiyi "Türkləşmək, ilamlaşmaq, müasirləşmək" adlı kitabında toplamışdır. 11 bölmə olan bu kitab müəllifin fərqli zamanlarda, fərqli mətbuat orqanlarında yayılmış 11 məqaləsindən ibarətdir. Müəllif 1923-cü ildə ildə çıxan "Türkçülüyün əsasları" adlı əsərində türkçülüyü sistemləşdirib və məfkurə halına salıb.

Bir qədər araşdırdıqda isə görürük ki, Avropalaşma və ya müasirləşmə deyəndə hər iki müəllif əslində eyni şeyi nəzərdə tutur. Əgər Əli bəy "*Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiraatlarına müraciət etmək istiyoruz, özlərinə deyil. Biz istiyoruz ki, İslam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın*" deyirdisə, bunu "Üç cərəyan" məqaləsində Ziya Göyalp bu cür ifadə edirdi: *"Bu gün bizim üçün müasirləşmək – Avropalılar kimi zirehli gəmilər, avtomobillər, təyyarələr hazırlayıb istifadə etmək deməkdir. Müasirləşmək şəkilcə və yaşayış tərzi ilə Avropalılara bənzəmək demək deyildir. Müasirlik ehtiyacı Avropadan yalnız elmi və əməli biliklərin alınmasını bizdən tələb edir, Avropada dindən və millətdən doğan, beləliklə, bizdə də bu qaynaqlarda*

aranması lazım gələn bir sıra mənəvi ehtiyaclarımız vardır ki, bunların Qərbdən alınması lazım deyildir ".

Ziya Göyalp da həm də Turançı idi. "Bəs bu mümkündürmü?" sualını verən Göyalp özü "Bunu gələcək göstərər" cavabını verərək, Türkçülüyün uzaq ülküsü Turançılıqdır-deyirdi.

Z. Göyalp 24 oktyabr 1924-cü ildə vəfat edib. İstanbulun mərkəzində, Fatih ərazisində yerləşən Çəmbərlidaş qəbiristanlığında dəfn edilib.

Cümhuriyyətimizin qurulmasında misilsiz rolu olan Məhəmməd Əmin Rəsulzadə Qafqaz mətbuatında üçlü formulun ilk dəfə Əli bəy Hüseynzadənin dilə gətirdiyini deməklə bərabər, "Azərbaycan Cümhuriyyəti" əsərində bayrağın ideya müəllifliyin əsasən Ziya Göyalpa aid edir: *"Azərbaycan bayrağındakı mavi rəng-türklüyü, yaşıl rəng-müsəlmanlığı, al rəng də -təcəddüd və inqilab rəmzi olaraq həsbi ilə əsirliyi tərmiz edər ki, möhtərəm Ziya Göyalp bəyin "Türk millətindənəm, islam ümmətindənəm, Qərb mədəniyyətindənəm" düsturunu ifadə etmiş olur ".*

Qeyd edim ki, Əli bəy Hüseynzadə Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" əsərinə rəy yazıb və nəşrdə bu rəy ön söz kimi verilib.

Təbii ki, bu formul birdən-birə, və yaxud beş-üç günə ərsəyə gəlməyib, müəyyən zaman və mərhələ keçdikdən sonra bu şəklə düşmüşdür. Bu düsturun formalaşmasında bir çox mütəfəkkirin zəhməti keçmişdir ki, onlardan biri də "Yaxın Şərqdəki tarixi Avropalaşma hərəkatının ən səmimi ideoloqu" (Məhəmmədəmin Rəsulzadə), mənalı həyatının 50 ilini millətin yüksəlişinə həll edən **Əhməd bəy**

Ağaoğludur. Üçlü formulun formalaşmasında və gerçəkləşməsində Avropada ilk təhsil alan Əhməd bəy Ağaoğlunun xüsusi rolu olub. Ə. Ağaoğlu İslam dini, türkçülük, müasirlik (avropalaşmaq) barədə saya hesaba gəlməyən əsərlər yazıb.

Ağaoğlu Parisdə hüquq məktəbində təhsil alarkən milliyyətcə Azərbaycan Türkü olan Şeyx Cəmaləddin Əfqani ilə tanış olmuş, bu tanışlıq onun islama, türkçülüyə baxışlarında, onun gələcək fəaliyyətində önəmli iz buraxmışdır. Ağaoğlu yazılarında Şeyx Cəmaləddin Əfqaninin fikirlərinə xüsusi yer verirdi. 1905-ci ildə ermənilərin qarşısını almaq üçün "Difai" partiyasını yaratmış, bütün fikir və fəaliyyətini Türklərin milli və sosial məsələlərinə həsr etmişdir.

Onu da qeyd edək ki, Əhməd bəy Ağaoğlu Azərbaycan nümayəndə heyyətinin tərkibində Paris Sulh konfransına getməli idi. Amma onun fransız dilini təmiz bildiyini, Parisə yaxşı bələd olduğunu bilənlər Parisə getməyinin qarşısını aldılar, hətta həbs edərək Malta adasına sürgün etdilər.

Üçrəngli Bayrağımız tam formalaşana qədər neçə-neçə ziyalının, fikir adamının düşüncələrindən süzülüb gəlirdi. Həmin düşünürlərdən biri də **İsmayıl bəy Qaspıralı**dır. Dünya türklərinin birliyinə çalışan İsmayıl bəy Qaspıralı nəşr etdirdiyi "Tərcüman" qəzetində "Qazan Tatarı, Orta Asiya Sartları, Tarançılar filan yoxdur. Bir dinə inanan, bir dildə danışan Türklər vardır" yazırdı. Qaspıralının ən böyük xidməti "Dildə, fikirdə, işdə birlik" nəzəriyyəsini irəli

sürməyidir.

Üçlü formulun formalaşmasında böyük əməyi olan aydınlardan biri də Qaspıralının qohumu, varlı bir ailədə anadan olan **Yusif Akçura**dır. Y.Akçuranın proqram xarakterli "Üç tərzi-siyasət" əsərini bu qəbildən saymaq olar. Osmanlı İmperatorluğunu düşdüyü vəziyyətdən çıxarmaq üçün təklif olaraq yazılmış bu əsərdə siyasətin üç tərzi, "Osmanlılıq, İslamçılıq və Türkçülük" siyasi tərz olaraq müəyyənləşdirilir. Bu cür yazılarına görə Avropada Y.Akçura da "islam birliyi" fikrinin yaradıcısı və yayıcısı Şeyx Cəmaləddin Əfqani ilə müqayisə edilib.

Əli bəy Hüseynzadə, Ziya Göyalp, Əhməd Ağaoğlu, İsmayıl bəy Qaspralı, Yusif Akçuraoğlu və digər ideoloqlar kimi türkçülüklərinə ədəbi-bədii əsərlərində başlayıb, ideoloji-siyasi müstəvidə davam etdirən nəhəg fikir adamlarından biri də Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri olan Məhəmməd Əmin Rəsulzadədir. Milli bayrağın ideyasının müəllifləri çox olsa da bayrağın siyasi mənasını hesab edirik ki, **Məhəmməd Əmin Rəsulzadə** verib**.** Üçlü düsturun Azərbaycan Cümhuriyyətinin rəmzinə çevrilməsi bir başa M.Ə.Rəsulzadənin adına yazılmalıdır. Ömrünün 50 ilini Azərbaycanın istiqlalına həsr edən M.Ə.Rəsulzadənin ən böyük əsəri Azərbaycan Cümhuriyyəti və onun əbədi ideologiyasının rəmzi olan üçrəngli-ay ulduzlu Dövlət Bayrağıdır.

1915-ci ildə nəşr etdiyi "Açıq söz" qəzetinin başlığında Ziya Göyalpın "**Türkləşmək, islamlaşmaq, müasirləşmək**" formulunu qoymuş və bu təməl prinsipləri məqalələrində və rəhbəri olduğu "Müsavat" partiyasının proqra-

mında müəyyən yer almışdır. Məqalələrində ("Tutacağımız yol", "Getdiyimiz yol") müasirləşməyə geniş yer verib izah edən M.Ə.Rəsulzadə ilk dəfə ümumən türk dünyasına aid olan "Türkçülük, İslamçılıq və Müasirlik" ideologiyasını rəsmi dövlət ideologiyası elan etmiş, Demokratik Cümhuriyyətin, başda Dövlət Bayrağı olmaqla bütün rəsmi atributlarını bu əsasla təsis etmişdir.

M.Ə.Rəsulzadə İstanbulda Halim Sabit bəyin suallarını cavablandırarkən deyir: "*Müsavat firqəsi türkçü olmaqla bərabər islamiyyətdəki camiyəyi-diniyyəyi dəxi təqdir edər, beynəmiləliyyəti-islamiyyə fikrinin müdafeidir... Bu iki əsasla bərabər Müsavat firqəsi türkçülüyün də, beynəmiləliyyəti-islamiyyənin də yalnız müasir olmaq və əsrimizdəki fünun və sənaye ilə mücəhhiz bulunmaq cürətiylə vücudpəzir olacağına əmindir. Bunun üçün də demokratdır, radikaldır. Türkləşmək, islamlaşmaq, müasirləşmək firqənin düsturi əsasını təşkil edir*".

Həqiqətən də Azərbaycanın istiqlalı uğrunda sistemli və davamlı mübarizə aparan partiyalardan birincisi Müsavat partiyası idi. Əvvəl ümmətçilik əsasında qurulan partiya, M.Ə.Rəsulzadə İstanbuldan Bakıya qayıtdıqdan sonra yeni mərhələsinə qədəm qoyub, türkçülük ideyası ilə inkşaf etdi.

Mənbə:

Aydın Mədətoğlu.Türkçülər.(Tarixi-siyasi-ideolji oçerklər) "ORXAN" NPM, BAKI, 2015, 528 səh

Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri.
Bakı, "Şərq-Qərb", 2007, 480 səh.

Azər Turan. "Əli bəy Hüseynzadə: həyatı, mübarizəsi, yaradıcılığı və şəcərəsi" Letterpress, Bakı, 2014. 541 səh.

Bədirxan Əhmədli. Türkçülüyün üçlü formulu: nəzəri və tarixi aspektləri. Bakı, "Elm və təhsil", 2019, 288 səh.

Göyalp Ziya. "Türkçülüyün əsasları". Azərbaycan dilində. Bakı, "Maarif" nəşriyyatı. 1991. 175 səh.

Ziya Gökalp. "Türkleşmük, İslamlaşmak, Müasırlaşmak". ÖTÜKEN Ekvaf-ı İslamiye Matbaası, İstanbul, Naşiri: Yeni Mecmua, 1918.

Məhəmməd Əmin Rəsulzadə. "Azərbaycan Cümhuriyyəti". Bakı: Elm, 1990. – 116 səh.

R.A.Əhmədli. Azərbaycan Milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı: "Elm" nəşriyyatı, 2007.

AZƏRBAYCAN BAYRAĞI SOVET İLLƏRİNDƏ

Sən bayrağım! O yüksək şanlarınla enərkən,
Mavi göyə bir duman gəldiyini sezdim mən.
(Umugülsüm Sadıqzadə)

1920-ci il aprelin 27-dən 28-nə keçən gecə bolşeviklər Azərbaycan Xalq Cümhuriyyətini devirdikdən sonra sovetlərin etdiyi ilk iş üçrəngli bayrağımızı parlament binası qarşısından endirmək oldu. Hakimiyyət ələ alındıqdan sonra nə partiyalarla bağlanmış sazişlər (Onların ailə üzvlərinin həyatının və əmlaklarının qorunmasına dair) nə də digər öhdəliklər yerinə yetirilmədi. Cümhuriyyət liderlərinin, siyasilərin və görkəmli nümayəndələrin bir çoxu həbs edildilər. Onlardan bir qismi Nargin və daha uzaq düşərgələrdə güllələndilər. Həmçinin F.Xoyski, H.Ağayev, Behbudağa Cavanşir terror qurbanı oldular, qətlə yetirildilər. Azərbaycan hökumətinin başçılarından biri olan Nəsib bəy Yusifbəyli Kürdəmirdə öldürüldü. Bu məsələnin faciəli olduğunu Nəriman Nərimanov 1921-ci ilin may ayının 8-də çağırılan Birinci Azərbaycan Sovetlər qurultayında etiraf etmişdir.

Azərbaycan bolşeviklər tərəfindən işğal olunsa da, öz müstəqilliyini saxlamaq üçün müxtəlif yollardan istifadə olunurdu. Bütün rəhbər vəzifələri ələ keçirən daşnaklar tərəfindən əzilən xalq işğala boyun əymək istəməyərək həmin gündən etibarən fərqli formada etirazlara və üsyan-

lara başladı. Bəzi tədqiqatçılara görə 70 il sovet hakimiyyəti dövründə (əsasən 1941-ci ilə qədər) Azərbaycanda 200-ə yaxın irili-xırdalı üsyan baş vermişdir. (200-ə yaxın üsyan deyərkən qaçaq hərəkatları da ora aid edilir). Tədqiqatçılar haqlı olaraq Azərbaycanda bolşevik rejiminə qarşı mübarizəni bir neçə mərhələyə bölürlər. Təbii ki, bu mərhələlər may ayından başlayırdı. 1920-ci ilin may ayında Bakıda sovet hakimiyyətinə qarşı ciddi hazırlıq görülürdü. Yeni hökumətə qarşı ilk üsyan isə Qarabağda olub. 300 nəfər yerli silahlı dəstə və Cümhuriyyət ordusunun əsgər və zabitləri yeni rejimə qarşı silahla çıxış edirdilər. Qarabağdakı üsyanlara Bakı xilaskarı Nuru Paşa rəhbərlik edirdi. Etiraz dalğası digər bölgələrə də yayıldı. Üsyanlar Azərbaycanı bürüdü. Tərtərdə, Qəbələdə, Şəkidə, Zaqatalada, Qaxda və digər bölgələrdə sovetlərə qarşı silahlı üsyan baş qaldırdı.

Lənkərandakı üsyana Cümhuriyyətin süqutundan sonra Azərbaycanda qalmış türk zabiti Yusif Camal bəy, Nəcəfqulu xan və Şahverən rəhbərlik edirdi. 7 silahlı dəstədən ibarət olan üsyançılar təxminən 6-10 min nəfərdən ibarət idi. Qeyd edək ki, Yusif Camal bəyin məzarı Astara rayonunun (əvvəlki adı Büstər olan) Pensər kəndində qalmaqdadır.

1930-cu ilə qədər davam edən bu cür üsyanların ən güclüsü Gəncədə baş verdi. Sovetlərə qarşı ən böyük dirəniş işğaldan bir ay sonra, may ayında Gəncədə oldu. XI Qızıl Ordunu narahat edən bu üsyanın törətdiyi narahatçılığın səsi Leninə qədər gedib çatmışdı.

Podpolkovnik Cahangir Kazımbəyovun başçılığı ilə üsyana qalxan üçüncü atıcı alaya rəhbərlik etmək üçün may ayının 26-da general Cavad bəy Şıxlınski, şəhərin istefaya göndərilmiş komendatı Məhəmməd Mirzə Qacar da qatıldı. Üsyan etmiş orduya ətraf kəndlərdən 10 mindən çox insan qatıldı. Üsyançılar şəhərin ermənilər yaşayan hissəsini tuta bildilər. May ayının 28-dən etibarən üsyançılara qarşı yeni hərbi hissələr göndərildi. Göndərilmiş hərbi hissələrin 57 topu, 2 zirehli maşını, bir neçə zirehli qatarı sayəsində döyüş qeyri-bərabər şərait aldı. 31 mayda şəhərə edilən hücumda həmişəki kimi ermənilərin satqınlığı ilə üsyan amansızcasına yatırıldı. Gəncə üsyanı zamanı XI Ordu 8500 nəfər itki verdi. Milli ordu və mülki əhalidən isə 10 000-dən artıq insan şəhid oldu.

Məhəmməd Əmin Rəsulzadə yazırdı: *"Bu üsyan ibtida Gəncədə başladı. Çarizmin qəddar generalı, knyaz Sisiyanovla parça-parça döğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də özünü göstərdi"*.

Yuxarıda da qeyd etdiyimiz kimi tədqiqatçılar sovet hakimiyyəti ilə mübarizə tarixini bir neçə mərhələyə bölürlər. 1931-ci ildə axırıncı gizli, silahlı antisovet üsyan təşkilatları aşkar edilib, üzvləri həbs olunandan sonra mübarizənin yeni (1931-1937-ci il) mərhələsi başladı. Bu mərhələdə aparılan mübarizə mütəşəkkil deyil, əsasən ziyalılar təbəqəsi tərəfindən formalaşdı. Ziyalılar önə çıxaraq milli musiqinin, muğamın, tarın, əlifbanın, millətin adının, fərqli üsullarla türklüyün, hətta şeir formasının, bir sözlə ən mədəni milli dəyərlimizin müdafiəsinə qalxdılar. Bu il-

lərin mübarizə metodu sivil, amma cəsarətli və elmi idi. Məsələn Mikayıl Müşfiqin "Oxu tar" şeiri, Cəfər Cabbarlının mütləq tar çalınmalı olan əsərləri, Hüseyn Cavidin, Əhməd Cavadın zatən türkçülükdən ibadət olan yaradıcılıqları və çox sadalaya biləcəyimiz bu cür əsərlər həmin mübarizə silsiləsindən idi.

Bəlli olduğu kimi bu mübarizə Azərbaycan üçün çox baha-başa gəldi. Millətin ən dəyərli ziyalılarının köklü məhvinə hesablanmış 1937-ci illər repressiyasında təkcə Azərbaycanda on minlərlə ziyalı güllələndi. İnsanlıq faciəsi olan bu fakt bütün SSSR-də qorxuya, xofa səbəb olmuşdur.

Ağır nəticələnən 1937-ci il repressiyalarından bir neçə il sonra ikinci dünya müharibəsi başladı. Müharibə illərində Azərbaycan gəncləri arasında yenə azadlıq düşüncəsi alovlanıb, yayılmağa başlayıb. Hətta antisovet təşkilatları yaranıb. Müharibə illərindəki təşkilatlardan üzvləri 1942-ci ildə "antisovet fəaliyyəti" ilə təqsirləndirilərək həbs edilmiş "İldırım" təşkilatını və 1944-cü ildən fəaliyyət göstərən, 1948-ci ildə bir neçə üzvü həbs edilmiş "Dönməzlər" təşkilatını misal göstərmək olar.


Sovet imperiyası tarixində yeni mərhələ 1956-cı ildən başlayıb. Belə ki, 1953-cü il mart ayının 5-də Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin sədri və Sovet İttifaqı Kommunist Partiyasının birinci katibi İosif Stalinin (Cuqaşvili) ölümü hakimyyətdə bir qədər çaşqınlıq yaratmışdı. Hakimiyyətə gələcək komanda yaxşı bilirdi ki, ciddi islahatlara ehtiyac var. Odur ki, 1956-cı ildə keçirilən Sovet İttifaqı Kommunist Partiyasının 20-ci qurulta-

yında bütün çatışmamazlıqlar İosif Stalinin və onun komandasının ayağına yazılmış, minlərlə günahsız insan bəraət alaraq həbsdən azad edilmişdir. Sürgün edilmiş insanların bir qismi vətənə qayıdıb burada yaşamışdır. Əslində isə bütün bunlar formal bəraət idi. Əvvəla güllələnmiş 10 minlərlə insanı geri qaytarmaq mümkün deyildi. Həmçinin bu bəraət siyasi səbəblərə görə həbs edilənlərin hamısını əhatə etmirdi. Bəraət verilənlərin çoxunun əsərlərinin nəşri, təbliği üzərindən qadağa götürülməmişdi.

Bu nisbi yumşalma gənclərin yenidən canlanmağına səbəb oldu. Sonradan disident adı alacaq bu gənclər tək mübarizə apara bilməyəcəklərini dərk edib, kiçik dərnəklər yaradır, antisovet vərəqələr yazır, yayırdılar. Ancaq bu dərnəklərin ömrü çox da uzun olmurdu. Xüsusi xidmət orqanları onların izinə düşür, üzvlərini həbs edərək "dövlətə zərər vurmaq" iddiaları ilə azadlıqdan məhrum edirdilər. 1956-cı ildən sonra sovet rəhbərliyi ölkənin demokratikləşdiyini, beynəlxalq qanunlarla idarə edildiyini, siyasi baxışlarına görə insanların təqib və təzyiqlərə məruz qalmadığını desə də əslində heç də belə deyildi. Azad fikirlərinə görə həbs edilənləri qrup şəklində oğurluq və quldurluq etmiş dəstə üzvü kimi cinayət məsuliyyətinə cəlb edirdilər. Ən pisi isə siyasi baxışlarına görə həbs edilənləri çox vaxt psixi xəstə adı ilə "müalicəyə" göndərirdilər. 1967-ci ildə DTK tərəfindən istintaqa cəlb olunmuş və "müalicəyə" göndərilmiş mübarizlərdən biri də dəyərli dostumuz Rafiq Turabxan oğlu Abdullayevdir. Rafiq Turabxanoğlu qapalı psixi xəstəxanada "müalicə" alanları bir

neçə qrupa bölərək yazır: "*Məsuliyyətə cəlb etdikləri insanların bir daha mətbuatda işləmək icazələri olmasın deyə bura gətirir, sonra da əqli cəhətdən şübhəli adam kimi azadlığa buraxırdılar ki, bir daha mətbuat üzü görməsinlər*".

Sovet hakimiyyətinin təbliğatı nəticəsində uzun illər ölkəmizdə "Azərbaycanda dissident olmayıb", "Azərbaycanda müxalif düşüncəlilər təqib və təzyiqlərlə üzləşməyib", "Azərbaycanda düşüncəsini sərbəst ifadə edə biləcək ziyalılar yox idi" kimi fikirlər formalaşmışdı. Amma bir az araşdırdıqda, Əzizə Şamil və Əli Şamilin müəllifləri olduğu "Dissident sorağında" ktabını oxuyanda bəlli olur ki, Azərbaycanda onlarla dissident olub. Kitabda 21 dissidentdən ətraflı bəhs edilsə də kitabda 100-ə yaxın dissidentin adı keçir. Təmənnasız fədailər adını almış bu qəhrəmanlar içindən mövzumuz gərəyincə nəzərimizi ən çox Cahid Hilal oğlu çəkdi.



Sovet ittifaqı dövründə Azərbaycanın azadlığı uğrunda mübarizə aparan, təmənnasız fədailərdən biri olan vətənsevər **Hilaloğlu Cahid (Cahid Hilal oğlu Şirinov)** 1928-ci ildə Ağdam şəhərində anadan olub. Kiçik yaşlarından ailəsi ilə birlikdə Bakı şəhərinə köçüb, 13 saylı məktəbdə oxumuşdur. 1941-ci ildə Sovet ordusu İrana-Azərbaycanın Güneyinə hücum edəndə 13 yaşlı Cahid valideynlərindən xəbərsiz əsgərlərə qo-

şulub sərhəddi o tərəfə keçib. Bakıya iki ildən sonra qayıdıb. 1947-ci ildə məktəbi bitirdikdən sonra Azərbaycan Teatr İnstitutunun rejissorluq fakultəsinə qəbul olunub. Gənc yaşlarından tələbə yoldaşları ilə birlikdə gizli antisovet dərnək qurub, Rusiya əsarətinə etiraz əlaməti olaraq gizli vərəqlər yazıb, yayıb. Tələbə yoldaşı Çingiz Mirzəağa oğlu Abdullayevlə bir yerdə kommunist diktaturasına qarşı çıxaraq, uzun illər çiyin-çiyinə mübarizə yolu keçiblər. Bu cür fəaliyyətlərinə görə Ali məktəbdən qovularaq, 3 il müddətinə həbs edilib.

Hilaloğlu Cahid təkcə Azərbaycanda mübarizə aparmır, 1956-cı il 6-7 martda Tbilisidə 200 min nəfərə yaxın insanın keçirdiyi izdihamlı mitinqin qəddarlıqla yatırılmasına qarşı çıxır, mitinq iştirakçılarının tərəfini saxlayır. Mitinq iştirakçılarına divan tutulduğunu, insan haqlarının pozulduğunu söyləyir və vərəqlər paylayır. Onu polisə çağırıb ciddi söhbət etsələr də bu dəfə rəsmən cəzalandırmırlar. Bilirlər ki, Cahid Hilaloğlu və onun kimi insan haqları müdafiəçilərinin məhkəməyə verilməsi Tbilisi hadisələrinin daha geniş yayılmasına səbəb ola bilər.

Həmin il oktyabr ayının 23-də Macarıstanın paytaxtı Budapeştdə də mitinq olub. Sovet işğalından cana doymuş insanlar Stalinin 25 metr hündürlyündə bürünc heykəlini uçurub, heykəlin qopardılmış başına, alnına təhqiramiz ifadələr yazaraq meydanın ortasına qoyurlar. Sovet ordusu tanklarının, zirehli maşınlarının hesabına bu mitinq də yatırılır. Sovetlər bu hadisəni də gizli saxlamağa çalışsa da, üsyanın yatırılmasında iştirak etmiş Azərbay-

canlı əsgərlərin gətirdiyi xəbərlər və başqa qaynaqlarla yayılan məlumatlardan Cahid Hilaloğlu xəbər alır. Belə bir hadisənin Azərbaycanda da baş verə biləcəyini xalqa çatdırmaq üçün yenə vərəqələr paylayır, siyasi təbliğatlar aparır.

Cahid Hilaloğlu mübarizə yoldaşı Çingiz Abdullayevlə bir yerdə mühacirətə, Çingizin mühacirətdə yaşayan qohumlarının yanına getməyi planlaşdırsa da Çingizin DTK tərəfindən saxlanılması səbəbi ilə bu istəkləri baş tutmur.

Cahid Şirinov sovet rejiminə etiraz əlaməti olaraq –ov, -yev şəkilçilərindən imtina etdiyini bildirir, sonralar onun işə düzəlməsində və bir çox başqa işlərində maneə olsa da atasının adından düzəltdiyi Hilaloğlu soyadını qəbul edir.

Cahid Hilaloğlunu öz çağdaş dissidentlərindən fərqləndirən onun Hilaloğlu soyadına yaraşacaq, dillərə düşən əməli olub. Azərbaycan Xalq Cümhuriyyətinin 39-cu il dönümü münasibəti ilə, 1957-ci il may ayının 28-də Cahid Hilaloğlu və onunla birlikdə dərnəyin üzvləri Cümhuriyyətin üçrəngli bayrağını Qız qalasının üzərinə sancmağı qərarlaşdırırlar. Bayrağı Cahid Hilaloğlu Qız qalasının üzərinə qaldırıb.

DTK Cahid Hilaloğlunun fəaliyyətini aşkarlayır. Bu dəfə DTK sərt tədbirlər görür. C.Hilaloğlunu oğurluqda təqsirləndirərək həbs edirlər. Onu antisovet təbliğatı və təşviqatında ittiham edirlər. İşinə Azərbaycan SSR Ali Məhkəməsi baxır və 1957-ci ilin oktyabrında 10 il azadlıqdan məhrumetmə, 3 il siyasi fəaliyyətdən və vətəndaşlıq-

dan məhrumetmə ilə cəzalandırılır. Cəzasını Mordva MSSR-in Dubrovsk düşərgəsində çəkən Hilaloğluna olmazın işgəncələr verir. Qışın şaxtalı vaxtında onu buzlu suya atır və bir müddət orada saxlayırlar. Cahidin bədəni şişir. Həkimlər yardım etməsələr də ölümün cəngəsindən qurtarır.

Azadlığa çıxandan sonra bir müddət işsiz qalır. 1969-cu ildə Yerevanda yeni bərpa edilmiş C.Cabbarlı adına Azərbaycan Dövlət Dram Teatrında rejissor-aktyor kimi işə başlayır. DTK orada da Cahid Hilaloğlunu dinc buraxmır. Fərqli bəhanələrlə "söhbətə" çağırılır. İki ildən sonra Bakıya qayıdır, fərqli yerlərdə işləyir. Ömrünün son illərini anadan olduğu Ağdamda Dövlət Dram Teatrında çalışır. Xalq Cümhuriyyətinin 73 illiyindən iki gün sonra, 1991-ci il may ayının 30-da nömrəsi bilinməyən "Volqa" tərəfindən vurulur. Bu qəzadan dünyasını dəyişir.

Sovet İmperiyası dövründə Azərbaycanın milli, üçrəngli bayrağını Qız qalasından Bakı səmasında dalğalandıran Cahid Hilaloğlu Azərbaycanın müstəqilliyinin elan edilməsini görməsə də üçrəngli bayrağın dövlət bayrağı kimi qəbul edilməsini gördü. Çünki artıq 1991-ci il fevral ayının 5-də Azərbaycan Ali Sovetinin qərarı ilə Azərbaycan Sovet Sosialist Respublikası – Azərbaycan Respublikası adlandırılmışdı. Və elə həmin gün başqa bir qərarla 1956-cı ildə qəbul edilmiş Azərbaycan SSR-nin Dövlət bayrağı haqqında fərman ləğv edilərək üçrəngli Bayrağımız Dövlət Bayrağı olaraq təsdiq edilmişdir.

Sovet dövründə üçrəngli Azərbaycan bayrağı ilə bağlı başqa bir maraqlı hadisə 1969-cu ildə baş verib. Azərbaycan Xalq Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadənin ən yaxın silahlaşdarından biri olan Məhəmməd Kəngərli yazır: "1969-cu ildə Xudu Məmmədova üçrəngli bayrağımızı hədiyyə elədim və o, bayrağımızı gizli şəkildə Azərbaycana gətirə bilib". Hər halda məhz elə bu bayraqdan təsirlənmənin nəticəsi idi ki, Xudu Məmmədovun müəllifliyi ilə Ağdamın Mərzili kəndində Aypara və səkkizguşə ulduz formasında abidə ucaldılmışdır.



1988-ci ildə xalq hərəkatı başlayanda Laçın rayonunda üçrəngli milli bayraq üzə çıxarılıb. Həmin bayrağı 28 aprel 1920-ci ildə Azərbaycan Cümhuriyyəti süquta uğrayanda Azərbaycan ordusnun sonradan mühacirətdə yaşayan zabiti Firudin bəy Daryal Şuşa qubernatorluğunun binası üzərindən götürüb, doğma kəndi Təzəkənd kəndinə gətirib ailəsinə əmanət edib. Firudin bəyin həmkəndlisi

Arif Feyzullayev bildirir ki, həmin bayraq uzun illər gizli saxlanılır. Çox sonralar 1988-ci ildə üzə çıxarılır. Nə yazıq ki, 1992-ci ildə Laçın rayonu işğal olunan zaman ailənin digər əşyaları ilə bərabər bayraq da Laçında qalır.


İmperiya zamanı üçrəngli bayraqla bağlı maraqlı hadisələrdən biri də Bakının Maştağa kəndində baş verib. Maştağalı Hacı Zakirin dediklərinə görə Gülmirzə Bağır adlı kənd sakini 1973, ya da 1974-cü ildə kənd soveti binasının damından sovet bayrağını çıxardıb, yerinə üçrəngli Azərbaycan Bayrağını sancıb. Onda kənddə böyük qarışıqlıq olsa da onu tutmayıblar.

Nə yaxşı tutmadılar, kim idi Gülmirzə Bağır, haradan almışdı o bayrağı?

Maştağa kəndindən olan Gülmirzə Bağır İkinci Dünya müharibəsində iştirakçısı olub. Müharibədə yaralanaraq Almanlara əsir düşüb. Almaniyada Möhtərəm adlı Türk qızı ilə tanış olub, onunla evlənib. 70-ci illərə qədər Almaniyada yaşayıblar. Sonra Bakıya gəliblər.

Müsavat partiyasının keçmiş başqanı İsa Qəmbərin dediklərinə görə Gülmirzə Bağır və Möhtərəm xanım bayrağı 70-ci il illərdə Bakıya gətirib çıxarda biliblər: *"Gülmirzə Bağır əsirlikdə M.Ə.Rəsulzadə ilə tanış olub. Deyirdilər ki, 1952-ci ildə, Almaniyada bir tədbirdə, görünür Azərbaycanlı mühacirlərin tədbiriymiş, M.Ə.Rəsulzadə zala müraciət edərək soruşub ki, "mən vətənə, Azərbaycana üçrəngli müqəddəs bayrağımızı göndərmək istəyirəm. Bunu kim çatdıra bilər?" Orda da Gülmirzə bəyi təqdim ediblər. Gülmirzə bəy bayrağı qəbul edib Azərbaycana çatdırmağı öhdəsinə götürüb. Həyat yoldaşı*

Möhtərəm xanımın dediyinə görə, bayrağı üçrəngli parçalardan Məhəmməd Əmin bəy şəxsən özü kəsib, xanımı da tikib. Sonra da bayrağı Gülmirzə bəyə təhvil veriblər".



109x149 sm ölçüdə olan, ipəkdən hazırlanmış həmin bayrağı Müsavat rəhbərliyi tarix muzeyinə təhvil verib.

Mənbə:

M.İ.Əmrəhov. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. *Ali məktəblər üçün dərslik.* – Bakı: ADPU-nun nəşriyyatı, 2009.-371 səh.

Məhəmməd Əmin Rəsulzadə. "Azərbaycan Cümhuriyyəti". – Bakı: Elm, 1990.-116 s.

Əzizə Şamil, Əli Şamil. Dissident sorağında (1956-1986). Bakı: "Elm və təhsil", 2018, 204 səh.

https://muxalifet.az/rsulzad-dedi-ki-bu-bayragi-vtn-kim-catdira-bilr.html


AZƏRBAYCAN BAYRAĞI MÜHACİRƏTDƏ

Türküstan yelləri öpüb alnını
Söyləyir dərdini sana, bayrağım!
(Əhməd Cavad)

Sovet İttifaqı dövründə üçrəngli bayraq altında fəaliyyət təkcə gizli olaraq SSR-də deyil, xaricdə də fəaliyyət göstərilirdi. Daha doğrusu elə ən ciddi işlər SSR sərhədlərindən kənarda Azərbaycan Cümhuriyyətinin qurucuları, ictimai-siyasi xadimlər, görkəmli ziyalılar və digər mühacirlər tərəfindən görülürdü.

Azərbaycan mühacirətinin tədqiqatçısı, sosiologiya üzrə fəlsəfə doktoru Əfqan Vəliyevin sözləri ilə desək: *"Rəsulzadə və silahdaşları bolşevik işğalından sonra mühacirətdə Azərbaycanı və onun milli mənəvi dəyərlərini təbliğ etdilər, onlar getdikləri ölkələrdə Azərbaycan adını əbədiləşdirdilər, ölkənin səsi, nəfəsi oldular. Onların çıxışları və yazdıqları hər sətir Azərbaycanın adını ucaltmaq amalına xidmət edib. Onlar "Bir kərə yüksələn bayraq, bir daha enməz" şüarına sadiq qalaraq, üçrəngli bayrağı təkrar müstəqil Azərbaycanda ucaltmaq üçün mübarizə aparıblar. Onların arzusu Azərbaycanı azad, müstəqil görmək və üçrəngli bayrağı təkrar ölkə səmalarında dalğalandırmaq idi".*

Qeyd edək ki, Əfqan VƏliyev ictimai xadim Mirzə Bala Məmmədzadənin 1920-ci ilin aprelində Cümhuriyyət parlamentinin binasından götürdüyü, özü ilə mühacirətə apardığı bayrağı uzun illərdən sonra doğma vətənimizə gətirib.



Cümhuriyyət araşdırmaçısı Ceyhun Nəbinin sözləri ilə desək:

"Azərbaycan bayrağı nə vaxt endi ki? Azərbaycan siyasi mühacirləri bir gün olsun belə o bayrağı enməyə qoymayıb. Həmişə başları üzərində saxlayıblar. O bayrağın altında istiqlal davası aparıblar".

Azərbaycan mühacirəti əvvəldən də mövcud idi. M.Ə.Rəsulzadənin dediyi kimi Azərbaycan mühacirətinin

başında Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə kimi böyük şəxsiyyətlər dururdu.

Əslində ilk dəfə mühacirət fəaliyyətinə Tiflisdən başlanıb. Aprelin ortalarından Azərbaycan Parlamentinin sabiq sədr müavini Həsən bəy Ağayevin rəhbərliyi ilə Tiflisə, Zaqafqaziya Respublikalarının Konfransına göndərilən nümayəndə heyəti də aprel çevrilişindən sonra vətənə dönmədi. Fətəli Xan Xoyski, Mustafa Vəkilli, Şəfi Rüstəmbəyli, Nağı Şeyxzamanlı və digər dövlət xadimləri hələ sovetləşməmiş qonşu Gücüstana keçə bildilər. Artıq Gürcüstanda fəsliyyətə başlayan mühacirlər Azərbaycan Cümhuriyyətinin hərbi yolla devrilməsini dünya ictimaiyyətinə çatdırmaq üçün kəskin bəyanatlarla çıxış edirdilər. Bu etiraz bəyannaməsi imzalanıb yayıldıqdan heç bir ay keçməmiş iyunun 19-da Fətəli Xan Xoyski və Həsən bəy Ağayev Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirildi.

1919-cu ildə Azərbaycan Parlamenti tərəfindən Əli Mərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris sülh konfransına göndərilmiş, Azərbaycan Cümhuriyyətini dünyaya tanıtmış nümayəndə heyətinin əksər üzvləri (Ceyhun Hacıbəyli, Mir Yaqub Mehdiyev, Məmməd Məhərrəmov, Əkbərağa Şeyxülislamov, Abbas bəy Atamalıbəyov) 27 apreldən sonra Avropada qalaraq mühacirət həyatı yaşamağa məcbur oldular.

Həmçinin Cümhuriyyət hökumətinin təhsil almaq üçün xaricə göndərdiyi tələbələrin də əksəriyyəti mühacirət həyatı yaşamağa məcbur oldu. Hətta mühacirətdə ilk təşkilat da 1924-cü ildə Almaniyada təhsil alan azərbay-

canlı tələbələrin bazası əsasında yaradılmışdı. "Azərbaycan İstiqlal Komitəsi" adlanan təşkilatın ilk sədri Heydər adlı mühacir olmuşdu.

1920-ci il aprel işğalından sonra mühacirlər daha da çoxaldı və sistemli fəaliyyət formalaşdırdılar. Çəkinmədən deyə bilərik ki, mühacirət həyatı yaşayan Azərbaycan siyasətçiləri Türkiyədə, Polşada, Almaniyada, hətta uzaq Argentinada Azərbaycanın xarici siyasəti ilə məşğul olublar.

Heç təsadüfi deyil ki, Argentinada yaşayan mühacirlərimiz böyük öndər Məhəmməd Əmin Rəsulzadənin 70-ci doğum gününü təbrik edərkən üçrəngli bayrağımızın yenə vətən səmasında dalğalanmasını diləyərək yazırlar:

"Hörmətli Məhəmməd Əmin Rəsulzadə!

Əziz və möhtərəm ustadımız!

Argentinadakı "Qafqaz Birliyi"nə mənsub azərbaycanlılar 70-ci doğum ildönümünüz münasibəti ilə sizi səmimiyyətlə təbrik edərkən bütün həyatınız boyunca istiqlalı uğrunda çalışdığınız əziz vətənimiz Azərbaycana tez qovuşmanızı ürəkdən arzulayır və şəxsinizə uzun ömür və səadət diləyirlər. Dünyanın ən gözəl ölkələrindən birini təşkil edən Azərbaycanın 28 may 1918-ci ildə olduğu kimi təkrar azərbaycanlılara aid olduğunu şəxsən elan etmənizi görmək istəyirik. İmperialist Rusiyanın əsarəti altında olan Azərbaycanın və bütün Qafqazın çox yaxın bir zamanda düşmən istilasından qurtulmasını və vətən səmalarına təkrar üç rəngli bayrağımızı ucaltma fürsətini Uca Tanrıdan istirham edəriz. Biz Azərbaycan əsgərləri Vətənimiz Azərbaycanın və Qafqazın hürriyyəti və istiqlalı uğrunda apardığınız mü-

qəddəs savaşa son damla qanımıza qədər dəstək olacağımıza söz veririk, möhtərəm Əmin bəy".

Bir çox ölkədə mühacirətdə olub, nəhayətdə Argentinaya gələn mühacirlərdən biri də polkovnik Vəli bəy Yadigar idi. 1920-ci il 27 aprel işğalından sonra işğalçılara qarşı mübarizə aparan Azərbaycan Ordusunun zabiti Vəli bəy Yadigar bir çox hərbiçilərlə bir yerdə Türkiyəyə, oradan Polşaya gedib. Polyak ordusuna qəbul olunub, orada hərbi xidmətdə olub. 1939-cu ildə Hitler Almaniyası Polşaya hücum edəndə onlara qarşı vuruşub. Müharibədən sonra isə Argentinaya mühacirət edib.

Mühacirətdə çap olunan "Mücahid" jurnalında Vəli bəy Yadigarın Azərbaycanın istiqlalı barədə xatirələri yer alıb. 27 aprel işğalından 40 il sonra 1960-cı ildə "40 illik kölələlik nizamı" başlığı ilə yazılan yazı yenə bayrağımızı yüksəklərdə görmək arzusu ilə yazılıb və bu sözlərlə tamamlanır:

"Ruslarla bir arada yaşamaq (qurdla quzu hekayəsi!) absurd bir şeydir. Üçüncü dünya müharibəsi mütləq olacaq. Bunu heç kim istəməsə də, Rusiya istəyəcək. O günlərdə Allah bizə milli bayrağımızı yüksək tutmağa kömək etsin. Azərbaycan, qardaş türk yurdlarını və rus boyunduruğu altında inləyən bütün dövlətləri müstəqilliyə qovuşdursun. Buenos-Ayres 1960"

Azərbaycan mühacirləri 70 ilə yaxın xarici ölkələrdə ağır və təhlükəli həyat şəraitində onlarla ictimai-siyasi təşkilat yaradıblar. Siyasi mühacirlərin xaricdə yaratdığı təşkilatların, gördüyü işlərin öyrənilməsi siyasi tariximiz baxımından çox əhəmiyyətlidir. Sovet sisteminin qoyduğu

qadağalar səbəbi ilə uzun illər soydaşlarımızın yaradıcılığından xəbərsiz olmuşuq. Yalnız 1980-ci illərdən sonra rəhmətlik Mövsüm Əliyev və digər araşdırmaçılar mühacirət tariximizi öyrənilməsinə başlayıblar. (Çox təəssüf ki, bu gün Mövsüm Əliyevin də məzarını itirmişik. Dəfn edildiyi qəbiristanlıq bəlli olsa da, qəbrini axtarmağımız heç bir nəticə vermədi. Qeyd edək ki, Mövsüm Əliyev Cümhuriyyəti ilk tədqiq edənlərdəndir. İlk dəfə məhz M.Əliyev 1988-ci ilin sentyabrında "Vətən" cəmiyyətinin "Odlar Yurdu" qəzetində M.Ə.Rəsulzadə haqqında yazısını çap etdirib. Sonradan həmin qəzetdə F.X.Xoyski, N.Yusifbəyli, M.Y.Cəfərov, C.Hacıbəyli, M.Vəkilov, X.Rəfibəyov və digərləri haqqında biblioqrafik məqalələri çap edilib).

Təkcə Azərbaycanın deyil, Qafqazdan olan mühacirlərlə birlikdə bütövlükdə Qafqazın azadlığına çalışan milli mühacirlər siyasi fəaliyyətlə bərabər yaradıcılıqla da ciddi şəkildə məşğul olublar. Yüzlərlə ədəbi və araşdırma əsərləri yazıblar. Mühacirlərin ədəbi və siyasi fəaliyyətində Azərbaycanın itirilmiş istiqlaliyyətinin, müvəqqəti olaraq endirilmiş üçrəngli, ay-ulduzlu bayrağımızın həsrəti hiss olunur.

Mühacirlərimizin mübarizəsi təkcə Azərbaycan davası ilə bitmir. Onlar M.Ə.Rəsulzadənin başçılığı ilə,"Yeni Kafkasiya" ilə əsası qoyulan dərgilər ("Azərbaycan", "Odlu yurd", "Mücahid" və s.) və qəzetlər yayınlayıblar. Dərginin "Yeni Kafkasiya" adlandırılmasından da görünür ki, Azərbaycan Mühacirləri bütün Qafqaz mühacirləri ilə iş birliyinin yaradılmasının ilk təşəbbüsçülərindən olmuşdu. Bu baxımdan mühacirət tarixində müstəsna əhəmiyyəti

olan, xeyli iş görmüş "Promotey" cəbhəsinin yaranması labüd və zəruri idi.

Mühacirət nəsrimizin ilk mətbu örnəyi olaraq dəyərləndirilən Mirzə Bala Məhəmmədzadənin "On dəfə öldürülən" hekayəsində və sonralar yazılacaq bütün əsərlərdə bolşevizmin iç üzü ifşa edilib. Ən əsası isə mühacirlər bütün fəaliyyətləri ilə milli ideologiyamızın yaşamasına və daha da dolğunlaşmasına xidmət ediblər.

Məhəmməd Əmin Rəsulzadənin 1926-cı ildə "Yeni Kafkasya" dərgisində yayınlanmış çox qısa bir hekayəsini oxumaq bəs edir ki, mühacirlərimizin müstəqil Cümhuriyyətimiz və Cümhuriyyətimiz üzərində dalğalanan bayrağımıza olan sevgisini və həsrəti anlayasan. "Qəzetçi Seyyid" adlı həmin hekayədə M.Ə.Rəsulzadə qəhrəmanı qəzetçi Seyyidin simasında müstəqillik günlərini həyatının ən gözəl günləri, anları olduğunu yazır:

"Milli və vətəni qayələrlə keçirilən nümayişlərdə Seyyidi daima vücudu ilə mütənasib bir həyəcan sarırdı. Qocaman Azərbaycan bayrağını böyük bir vüqarla çiyninə alır, həyatının ən nəşəli anlarını yaşayırdı".

1930-cu illərin sonunda qaçırdığı təyyarə ilə İrana, oradan da Türkiyəyə gələn mühacir Məmməd Altunbay müəllifi olduğu "Azadlığa uçan türk" adlı xatirə romanında anasının anlatdıqlarını oxucularla bölüşür:

"1918-ci ilin 28 May tarixini yaxşı yadınızda saxlayın. Bu tarix vətənimiz Azərbaycanın hakimiyyəti orta əsr düşüncəsi ilə idarə edən çar Rusiyasının üsul-idarəsindən qurtuluşu və əslən türk soylu millətimizin yenidən yaranma günüdür".

Amma millət, dövlət, bayraq sevdalıları olan mühacirlərimiz bu sevdanı heç də rahat yaşamırdılar. Əksinə həyatlarının hər anında fərqli formada maneə və təpgilərlə qarşılaşırdılar. Məsələn mühacir şair Almas İldırım haqqında oğlu Azər Almasın maraqlı bir xatirəsi var: *"Bir türk valisi xəritə və bayrağı görərək atamdan hiddətlə*

- Bu nə deməkdir – deyə soruşur.

- Bu "Vətən" deməkdir, - atam sakitcə cavab verir.

- Bəs bura nədir?

- Azərbaycan mənim birinci vətənim, Türkiyə isə ikinci vətənimdir! – deyir".

Bütün bu çətinliklərə, hətta müəyyən zamanda fikir ayrılıqlarına düşmələrinə baxmayaraq Azərbaycan siyasi mühacirlərinin tək hədəfi üçrəngli, milli Azərbaycan bayrağını yenidən müstəqil Azərbaycan səmasında dalğalandırmaq olub.

Mənbə:

https://stm.az/publications/meqaleler/resulzadenin-plakat-altnda-tuyan-eden-siyasi-ekstremizle-ne-etmeli
https://www.facebook.com/ceyhun.nabi

X.C.İbrahimli. Azərbaycan mühacirət tarixi. ADPU nəşriyyatı Bakı – 2012. Səh 358.

Çapar dərgisi. No.1. 8.12.2018

Nasiman Yaqublu. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası. Bakı, QANUN nəşriyyatı, 2018, 832 səh.

Nikpur Cabbarlı. Azərbaycan mühacirət nəsri. Bakı, "Elm və təhsil", 2011. 140 səh.

Teleqraf.com/news/art/143332.html

Altunbay M. "Azadlığa uçan türk". Xatirələr. Türk dilində. B, "Maarif" nəşriyyatı, 1994. 171 səh.

Dilqəm Əhməd. Fərqlilər. Bakı: TEAS Press Nəşriyyat evi, 2015. – 216 s.

AZƏRBAYCAN LEGİONERLƏRİNİN ÜÇRƏNGLİ BAYRAQ ALTINDA FƏALİYYƏTİ

Üçrəngli əksini Quzğun dənizdən
Ərmağan yollasın yara, bayrağım!
(Əhməd Cavad)

1941-ci il iyunun 22-də alman qoşunları SSR-yə hücum etdi. Müharibə sovet xalqına ağır itkilərlə başa gəldi. Belə ağır itkilər Stalinin həm müharibəyə qədərki, həm də müharibə başlayanda etdiyi səhvlər səbəbindən olmuşdu. Bu səhvlər barədə nəinki qərb tədqiqatçıları yazıb, həmçinin SSR tədqiqatçıları da etiraf ediblər. Keçmiş sovet zabiti mayor Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski Stalinin səhvlərini belə izah edirdi:

"Bir-birinin ardınca yüksək rütbəli komandirlər dəyişdirildi. Avqustun əvvəllərində şimal-qərb cəbhəsinin komandiri general-polkovnik Kuznetsov işdən çıxarıldı, Kiyev Xüsusi Hərbi Dairəsinin komandiri Sovet İttifaqı Qəhrəmanı Pavlov güllələndi. Hər gün yüzlərlə əsgər, zabit digərlərini qorxuda saxlamaq üçün güllələnirdi".

Keçmiş sovet kəşfiyyatçısı Suvorov Stalinin cinayət xarakterli digər nöqsanlarını da açıqlayırdı. O, yazırdı ki, sənədlər sübut edir ki, müharibənin hər üç günü ərzində 92 hərbi xidmətçi güllələnirdi. Yəni hər gün 30 nəfəri hərbi bölmənin və hərbi hissənin sırası qarşısında güllələyirdilər. Suvorovun açıqlamalarından məlum olur ki, hərbi hissədən və cəbhədən qaçmış 657 min 364 nəfər hərbi xid-

mətçi saxlanılmışdır. Xüsusi şöbələrin qərarı ilə bunlardan 10 min nəfərdən artığı güllələnmişdir. Vəziyyət o dərəcədə dözülməz və ağır idi ki, döyüşqabağı əsgərlərin özünü güllələmə halları çoxalırdı.

Müharibə illərində 2 milyon yarım insanın itkin düşdüyü bildirilirdi. Onların müəyyən sayının Rusiyanın meşələrində və bataqlıqlarında itkin düşdüyünü qəbul etsək, onda bəs qalanları hardadır?

Arxiv materialları və tədqiqatlardan məlum olur ki, müharibə illərində (1941-1945) əsgər paltarı geyinən 32 milyon nəfərin 5 milyon 734 min 528-i əsir düşmüşdü. Əsir düşənləri birmənalı olaraq fərari, hətta vətən xaini elan edən Stalin həmin əsgərlərin nəinki özlərini, ailəsini də dövlət yardımlarından və köməyindən məhrum etmişdi. Stalin haqsızlığı o həddə çatmışdı ki, hətta həlak olanları belə cinayətkar sayırdılar. Mənbələrdə göstərilirdi ki, sovet əsgərləri bir-birindən xahiş edirdilər ki, əgər həlak olsalar, sağ qalanlar onların necə öldürüldüyünü gördüklərini təsdiqləsinlər. Yalnız bu halda onların ailəsini incitmir, sakit buraxırdılar.

Vətən müharibəsi zamanı 1941-ci il iyunundan 1944-cü ilin yanvarına qədər Azərbaycan SSR-dən 553 min 910 nəfər aparılmışdır. Sovet İttifaqının siyasətindən narazı qalan çoxlu sayda Azərbaycanlı almanlar tərəfinə keçmişdir. Bu məlum olduqda Azərbaycan KP MK-nın qərarı ilə 17 yaşı tamam olmayanları da döyüş bölgəsinə göndərirdilər. Qərarda oktyabrın 25-dən noyabrın 15-nə qədər 1926-cı il

təvəllüdlü bütün kişi cinsinə mənsub olanların hərbi xidmətə çağırılması göstərilirdi.

Alman-sovet müharibəsinin ilk illərindən hərbi və mülki əsirlərdən könüllülər dəstəsi yaratmağa başladılar. İlk aylarda həmin könüllülərdən arxa cəbhədə və ön cəbhədə patrondaşıyan və minatəmizləyən kimi istifadə edirdilər. Qeyd olunmalıdır ki, bu əsirlərin hüququ artdıqca onlar legionerlər-könüllülər, könüllü vuruşanlar olaraq qəbul edilməyə başladılar. Bəzi mənbələrə görə könüllülərdən təşkil olunan 180 hərbi hissə var idi ki, 13-ü azərbaycanlılardan ibarət idi. Bu birliklərə qoşulmuş soydaşlarımızın nəzərində düşmən faşist almaniyası deyil, onların vətənini işğal edərək, üçrəngli bayrağını endirmiş, millətini əsarət altına almış bolşevik Rusiyası idi.

Legionerlər pis silahlanmağına baxmayaraq cəsarətlə döyüşürdülər. Lakin yaxşı silahlanmış müttəfiq qoşunları ilə müqayisədə zəif idilər. O səbəbdən bəzən ya məhv edilir, ya da geri çəkilirdilər.

1941-ci ilin oktyabr-noyabr aylarından başlayaraq 1942-ci ilin martına qədər xüsusi təyinatlı "Breqman" (Dağlı) Qafqaz taburu yaradıldı. Taburun tərkibində 5 atıcı bölükdən biri Azərbaycan bölüyü idi. 1942-ci ilin sentyabrından "Breqman" taburu Mozdok-Nalçik-Mineral sular rayonlarında sovet partizanlarına qarşı döyüşdülər. Həmin ilin oktyabrın 29-dan isə taburu ön cəbhəyə döyüşə göndərdilər. Hətta azərbaycanlılardan ibarət II tabur

Polşada yerləşdirildi və 1944-cü ilin avqustunda Varşavada üsyanın yatırılmasında iştirak etdilər.

1942-ci ilin yanvarında isə "Türküstan legionu" taburu formalaşmağa başladı ki, burada da müəyyən sayda azərbaycanlılar vardı. Həmçinin Orta Asiyadan, Yuxarı Volqa ərazilərindən, Zaqafqaziya və Krımdan olan etnik, dil, dini, mədəni, siyasi cəhətdən fərqləri nəzərə alınmaqla Qızıl Ordunun müharibə əsirləri "Türk xalqları" adı altında birgə döyüşçülər kimi qəbul edilirdi.

1944-cü ilin fevralından etibarən Şərq legionlarının müxtəlif hissələrində milli rəmzlərin əksi olan bayraqlardan istifadəyə icazə verilib.




1941-ci ilin noyabrın 1-dək alman düşərgələrində əsirlərin sayı iki milyondan çox idi. Bu fikrin müəllifliyində iki türk hərbiçisinin xüsusi rolu olmuşdur ki, onlardan biri general Ərkilət, biri isə Bakı xilaskarı Nuru Paşa idi. Nuru Paşa Alamniyanın Xarici İşlər naziri ilə görüşüb Türk Biriliyi ilə bağlı fikirlərini bölüşmüşdü. Lakin Almaniya dövləti Nuru Paşanın təkliflərini heç də onun gözlədiyi kimi qarşılamadı. Hitlerin "Sovet İttifaqının məğlu-

biyyətindən sonra keçmiş Rusiya imperiyasının böyük ərazisi başqa dövlətlərin yox, Almaniyanın təsiri altına düşməlidir" fikirlərini əsas götürdülər.

Almanlar hərbi əsirlərlə iş aparmaq məqsədi ilə ayrı-ayrı xalqların mühacirətdəki liderləri ilə əlaqələr qururdular. Bundan ötrü müvafiq komissiyalar yaradılırdı. 1941-ci ilin avqustunda komissiyalar fəaliyyətə keçərkən əsirlərlə görüşməyə başladılar. Azərbaycan komissiyasına Məhəmməd Əmin Rəsulzadə daxil idi. Azərbaycan milli legionu 5 min nəfərdən ibarət 5 taburdan ibarət idi. Lakin mühacirlərin Alamaniya hökuməti ilə danışıqları heç də uğurlu getmirdi. Xüsusən, şimali qafqazlılar, gürcüstanlılar və azərbaycanlılar öz ölkələrinin müstəqilliyi məsələsini irəli sürdüyündən almanlar tərəfindən qəbul edilmirdi. Belə olduqda M.Ə.Rəsulzadə getmək məcburiyyətində qaldı. Lakin fon Mende çətinliklə də olsa, Rəsulzadəni müvəqqəti olaraq saxlaya bilmişdi. Qeyd edək ki, həmin dövürdə Almaniyada M.Ə.Rəsulzadənin başçılığı ilə Milli Azərbaycan Komitəsi də yaradılmışdı.

Azərbaycan legionerlərinin başlıca qərargahı Polşada idi. Legonların ümumi sayı 36-37 min olduğu göstərilməkdədir. Bütün legionerlər könüllü təklif edilmiş nişan şəklində qollarında öz vətənlərinin fərqləndirici atributunu gəzdirirdilər. Lakin onlar alman forması geyinməyə məcbur idilər. Legionerlərin sol qollarında üçrəngli bayrağımız və ay-ulduz həkk olunmuş fərqlənmə nişanı vardı.





1943-cü ilin noyabrında Berlin şəhərində **Milli Azərbaycan Qurultayı** keçirildi. Azərbaycan Milli Qurultayının keçirilməsində əsas təşəbbüskar Ə.F.Düdənginski idi. Mehmanxana salonu çoxlu sayda adamlarla dolmuşdu. Avropanın müxtəlif ölkələrindən dəvət olunmuş azərbaycanlılar, cəbhələrdən, döyüş bölgələrindən gələn əsgər və zabitlər, qonaqlar Milli Azərbaycan Qurultayının keçirildiyi ilk günü salona toplaşmışdılar. Salon üçrəngli milli Azərbaycan və Almaniya bayraqları ilə bəzədilmişdi.

Mayor Fətəli bəy Düdənginski əhatəli şəkildə siyasi çıxış etdi. Mayor nitqini "Azərbaycan müstəqil olmalıdır" sözləri ilə bitirərkən gur alqışlar və "yaşasın azad vətən" sözləri yüksəldi.



Digər çıxışçılar da yalnız və yalnız istiqlal üçün hərb etdiklərini bildirdilər. Hətta dinimizdən sitat gətirərək sevgili peyğəmbərimiz və əshablarının hicrət etmək məcburiyyətində qaldıqlarını sonda isə qalib gəldiklərini xatırlatdılar.

Qurultay ruh verici musiqi səsləri və gurultulu alqışlarla başa çatıb.

Legionerlər mətbu fəaliyyətə də geniş yer verirdi. Həftəlik dərgilər və düşərgə qəzetləri yayınlayırdılar. Bəzən hətta alman və rus dilində nüsxələr çap edirdilər. Həmçinin ədəbiyyat sahəsində də fəaliyyət göstərir, ədəbi dərgilər və şeir kitabları nəşr edirdilər. "Mixaylo" kimi məşhurlaşmış Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadə də legioner olmuş, bir çox legionerlərlə bir yerdə o da "Qürbətzadə" təxəllüsü ilə həmin mətbuat orqanlarında çıxış etmişdir.

Legionerlərimiz bir an bayrağımızı unutmamış, onun dik durması üçün çalışmışdılar. Bu onların "Göy-Qırmızı-

Yaşıl", "Bir kərə yüksələn bayraq, bir daha enməz!" və bu kimi məqalələrində açıq-aydın görünür.

Zaman-zaman legionerlərin əsir rus komandanlığı altında savaşa qatılmağının əmri verilsə də Türküstan alayı alman ordusuna qarşı üsyan etmiş, əsgərlərə atəş açmışdır. Vəziyyətin gərginləşdiyini, çox sayda itkilər verdiyini görən almanlar qərarlarını dəyişiblər. Türk millətindən olan legionerləri "Türküstan Milli Ordusu" olaraq tanımaq məcburiyyətində qalıblar.

1945-ci ilin may ayının 9-da Almaniyanın məğlubiyyəti ilə legionerlərin taleyi şübhə altına düşdü. Onlar müttəfiqlərin tərəfində qalmağa çalışır, Sovet ordu hissələrinə tabe olmaq istəmirdilər. Müharibənin sona çatması Azərbaycan legionerlərinin də taleyini şübhə altına salmışdı. Legionerlərin Sovet ordu hissələrinin əlinə keçməməsi üçün Ə.Düdənginskinin təşəbbüsü ilə Azərbaycanın legionerlərinin bir hissəsi İtaliaynın şimalında, ingilislərin nəzarəti altında qalırdılar və hər zaman Sovet ordusuna təslim edilə bilmək təhlükəsində idilər.

Hərbi əsirlərin və legionerlərin taleyi təhlükə olaraq qalırdı. Tezliklə M.Ə.Rəsulzadənin başçılığı altında Münhendə "Azərbaycan Demokratik Birliyi" adlı cəmiyyət quruldu. Almaniyanın Münhen şəhərində gizli yaşayan M.Ə.Rəsulzadə Misir kralı Fərrux Alamniyada olarkən onunla əlaqə yaradıb azərbaycanlılara yardımını xahiş etmişdi. Kral Fərrux 600-ə yaxın azərbaycanlını özü ilə Misirə aparmışdı. Bundan əlavə Rəsulzadənin başçılığı altında

"Türkiyə-Azərbaycan" cəmiyyəti də yaradılmış və bu təşkilat azərbaycanlıların Türkiyəyə gedə bilməsini təşkil etmişdi. M.Ə.Rəsulzadə Ankaraya gəldiyi ilk gündən azərbaycanlıların Türkiyəyə gətirilməsi və yerləşdirilməsinə çalışdı. Yüzlərlə azərbaycanlı məhz onun köməyi ilə Türkiyədə sığınacaq tapdı.

Sovet imperiyası dövründə xaricdəki legionerlər "vətən xaini" elan edilsə də, 70-80-ci illərdən etibarən Azərbaycanda olan qohumları ilə məktublaşmağa, hətta görüşməyə icazə almışdılar.

İkinci Dünya müharibəsi illərində legioner həyatı yaşamağa məcbur olmuş həmvətənlərimiz ədəbiyyat, tarix, incəsənət, mətbuat, sahəsində çox zəngin iz yaratmışdır. Legionerlərin İkinci Dünya müharibəsindən sonrakı fəaliyyəti istiqlalımız uğrunda mübarizəyə istiqamətlənmişdi. Mühacirlərdən birinin sözlərindən bu açıq-aydın görünür: *"Nə olursa olsun biz qalibiyyətlə hansı qütbdən olursa vətənə dönəcəyik. İstiqlal bazarlarda satılmır, onu qan bahasına almaq gərək. Biz o istiqlalı şəhid qanlarımızla alacağız. Biz, evlərimizə ay-yıldızlı milli bayraqla müzəffər olacağız.*

Milli legionerlərdən Azərbaycanın müstəqilliyini görənlər də oldu. Ölkəmizin müstəqil olacağına hər zaman inanan məşhur legioner Məhəmməd Kəngərli erməni işğalına qarşı konfranslar keçirmiş, müsahibələr vermişdir.

Foto 1965-ci işldə Almaniyanın Neu-Ulm qəbristanlığında çəkilib. Göyçay rayonundan olan legioner Həmid Məhəmmədzadə' nin dəfni. Tabut üç rəngli bayrağımız sarılıb. Hansı ki, bu kişilər Bayrağımız uğrunda Almaniya ordusu tərkibində sovet rejiminə qarşı vuruşmuşdu.

Azərbaycan Legionerlərini dərin hüzn, sevgi və rəhmətlə hər daim xatırlayırıq!



Mənbə: **Yaqublu N. Azərbaycan legionerləri.**
Bakı: "Çıraq", 2005, 336 səh.

İKİNCİ İSTİQLAL

İstiqlal şairi Mehmet Akif Ərsoy xəstə yatağında olarkən bir qrup qəzetçi onu ziyarətə gəlir. Söhbətləri əsasında İstiqlal Marşından söz düşür. İstiqlal Marşı nə vaxtsa dəyişdirilə bilərmi? – deyə soruşurlar. Mehmet Akif yanındakı yastığa dirsəklənərək deyir:

"Allah bu millətə bir daha İstiqlal Marşı yazdırmasın".

XX əsrdə Azərbaycan xalqı ölkənin təkcə şimalında iki dəfə istiqlalını elan etdi. 1918-ci il may ayının 28-də Milli Şuranın elan etdiyi Azərbaycan istiqlalına 1920-ci il 27 aprelda rus işğalı ilə son qoyuldu.


Birinci istiqlalımızdan tam 70 il sonra, 1988-ci ilin əvvəllərindən etibarən Bakıda Sovet İmperiyasının həmin dövrdəki ədalətsiz totalitar rejminə qarşı etiraz mitinqləri başladı. Milli istiqlalımızın olmaması bir yana, ölkənin ərazi bütövlüyü təhlükə altında idi. Ermənilər Qarabağda təxribatçı hərəkatlara başlamışdı. Bu təxribatlar nəticəsində Ağdamda ilk şəhidlərimiz olmuşdu.

O dövrdən başlayan Qarabağ münaqişəsi hələ də öz həllini tapmasa da, Azərbaycan xalqında milli şüurunun yenidən oyanmasına səbəb oldu. Ölkənin ərazi bütövlüyü uğrunda başlanan kortəbii hərəkat tez bir zamanda milli azadlıq hərəkatına çevrildi. Artıq 1988-ci ilin yayından etibarən "Varlıq", "Çənlibel", "Yurd" kimi qruplar fəaliyyətə başladı.

Milli hərəkatın ən yüksək zirvəsi **Meydan Hərəkatı** oldu. Topxana meşəsi ilə bağlı başlanan hadisələrdə yüz minlərlə insan Azadlıq (o dövrdə Lenin) meydanına axışdı.

17 noyabrda başlayan oturaq mitinq 4-5 dekabr tarixlərində ordunun köməyi ilə dağıdıldı. Həmin günlərdə ziyalılar, alimlər, tələbələr, müəllimlər, fəhlələr, xalqın bütün təbəqələri hadisələrin mərkəzində idi. Buna rəğmən dekabrın 5-də Azadlıq meydanı rus hərbiçilərinin dəyənəkləri ilə mitinqçilərdən tamamilə təmizlənmişdi. "Təmizlənmə" əməliyyatında 500 nəfər xəsarət alıb, bir nəfər şəhid olub, hərəkat liderlərinin bir qismi həbs olunub. Həmin dövrdə Gəncədə, Şəkidə, Mingəçevirdə və digər şəhərlərdə mitinq və nümayişlər keçirilirdi.

1988-ci ilin 17 noyabrında başlanan kütləvi çıxışlar Azərbaycan tarixinə milli dirçəliş aksiyaları kimi düşdü. 1992-ci ildə 17 noyabr Azərbaycanda "Milli Dirçəliş günü" elan edildi. Bu gün də Azərbaycan xalqı 17 noyabrı Dirçəliş günü kimi qeyd edir.



Meydan Hərəkatı Azərbaycan üçün müstəqilliyə dönüş nöqtəsi oldu. Heç təsadüfi deyil ki, həmin hərəkata görə Azərbaycan xalqı İlin Xalqı olmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixi mirası olan üçrəngli bayraq ikinci dəfə məhz həmin günlərdə qaldırılmışdır. Tarixin qəribəliyidir ki, ilk dəfə 1918-ci il noyabrın 17-də ingilis generalı Tomsonun qarşılanmasında qaldırılan üçrəngli bayrağımız, tam 70 il sonra, 1988-ci il noyabrın 17-də başlayan meydan hərəkatında görünüb. Əvvəlcə kağız parçası üzərində təsviri çəkilərək meyadana gətirilən milli bayraq daha sonra parça üzərində hazırlanıb və günbəgün daha çox yayılmağa başlayıb.

Hətta sonralar bayrağı Azadlıq Meydanındakı hökümət evinin üzərinə də qaldırıblar.



Fotoda Azadlıq hərəkatının fəalları Nurəddin Xoca və Hüseyn Həsənoğlu hökümət evinin üzərinə bayraq sancır.

MEYDANDA İLK BAYRAQ QALDIRANLAR

Azadlıq meydanına ilk gətirilən bayrağı Milli-Azadlıq fəallarının "Gültəkin ana" kimi tanıyıb sevdiyi **Gültəkin Səfərli** tikib. Ömrünün qırx iki ilini müəllimə işləmiş Gültəkin Səfərli 1928-ci il 22 apreldə Naxçıvanda ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbi və musiqi məktəbini bitirdikdən sonra Naxçıvanda yerləşən iki illik Pedaqoji İnstituta daxil olur. Sonra təhsilini Bakıda APİ-nin dil-ədəbiyyat fakultəsində davam etdirir. 1989-cu ildə öz ərizəsi ilə işdən çıxaraq yun əlcəklər və corablar toxuyub, Qarabağa göndərib. Hər bağlamaya məktub qoyar, xəstəxanada yatanlara baş çəkər, meydan hərəkatında qutab bişirib oraya aparardı. Gültəkin ana həm də etiraz mitinqlərində Azadlıqsevər insanlarla çiyin-çiyinə olub.

Gültəkin ana gecəsini-gündüzünə qataraq böyük həvəslə üçrəngli Azərbaycan bayrağını tikir, meydandakı insanlara paylayır, hətta xaricə göndərirdi. Onun sayəsində çox qısa müddətdə meydanı Azərbaycan bayrağı bürümüşdü. O tikdiyi bayraqlarla fəxr edirdi.



Meydana gətirilən ilk böyük bayrağın müəllifi Gültəkin ana idi. Lakin özünün də dəfələrlə qeyd etdiyi kimi, meydana ilk gətirilən bayrağı başqa qadın, Bəxtiyar Tuncayın anası Sura xanım və bacısı Arzu xanım tikmişdir.

Azadlıq hərəkatının fəallarından olan **Bəxtiyar Tuncay** 1960-cı ildə Bakıda anadan olub. 1982-ci ildə Dövlət İncəsənət İnstitutunu bitirib. 1987-ci ildən siyasi fəaliyyətlə məşğuldur. Çənlibel, Oğuz Abidələrini qorumaq təşkilatlarının yaradıcılarından və fəallarından olub. 1990-cı illərdə "Meydan" qəzetində çalışıb. Bəxtiyar Tuncaya üçrəngli bayrağımıza görə cinayət işi açılıb.

B.Tuncay yazır ki, üçrəngli bayrağımızın şəklini Türkiyədən gətirdikləri "Azərbaycan" jurnalından götürmüşdülər. Onun əsasında Bəxtiyar Tuncayın anası parçaları tikmiş, bacısı isə ayparanı hazırlamışdı. Sonra həmin bayrağı mitinqə aparmışdılar. Bəxtiyar Tuncay üçrəngli bayrağı meydana gətirdiyinə görə sovet dövründə ona qarşı cinayət işi açılmışdı.

Qeyd etdiyimiz kimi meydana gətirilən ilk bayrağı B.Tuncayın anası və bacısı tikib. Bəxtiyar bəyin bildirdiyinə görə üçrəngli bayrağımızın şəklini ilk dəfə Ankarada nəşr edilən Azərbaycan Kültür Dərnəyinin nəşr orqanı olan "Azərbaycan" jurnalında görüb. İlk milli bayrağımızın rəngli çap formasını evə gətirib anası Şahverdiyeva Sura Səfər qızından və bacısı Şahverdiyeva Arzu Adil qızından mitinqə aparmaq üçün hazırlanmağı xahiş edib. Həmin bayrağı 1988-ci il noyabr ayında Bəxtiyar Tuncay meydana aparıb.



Üçrəngli bayrağı ilk dəfə meydana gətirənlərdən biri də Bədən Tərbiyəsi İnstitutunun tələbəsi **Salman Hüseynov və Elşad Ziyadov** olmuşdur. Salman Hüseynov bildirir ki, bayraq haqqında ilk məlumatı M.Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabından öyrənib. Meydana çatanda Elşad bəy Ziyadov da ona köməklik göstərib. Mitinqdəki komsomolçular onların əllərindən bayrağı alıb cırmaq istəsələr də, onlar müxtəlif istiqamətlərə qaçaraq bayrağı verməyiblər.

Salman Hüseynov 1992-ci ildən könüllü olaraq Şuşa, Ağdam, Ağdərə istiqamətlərində döyüşlərdə iştirak edib.

1988-ci ilin noyabr mitinqlərində Azərbaycan bayrağını kürsüdə dalğalandıran Bakı Dövlət Universitetinin Fizika fakultəsinin tələbəsi, Yurd birliyinin üzvü **Sakit Həsənli** oldu.

1988-ci il noyabrın 19-da S.Həsənli əvvəlcədən dostu **Nəsimi Məmmədli** ilə yataqxanadakı otaqlarında ağ mələfənin üstünə üçrəngli bayrağımızın təsvirini çəkib, birlikdə mitinqə gətirdilər.

1989-cu ilin noyabr ayının 17-də meydan hərəkatının bir illik yubileyində bayrağın kürsiyə gəririlməsi Sakit Həsənliyə həvalə edilib.

S.Həsənli 1987-ci ildən yurd birliyinə qoşulub. 1990-cı ilin noyabr-dekabr aylarında "Azərbaycan" qəzetində orduya getməklə bağlı müraciəti çap olunub. 1990-cı ildə könüllü olaraq tələbə yoldaşları ilə Qarabağın döyüş bölgələrinə yollanıb. Döyüşlərdə bir ermənini əsir götürüb.

Sonralar hətta doğum haqqında şəhadətnamələrini milliləşdirənlər də oldu.



İctimai fəal Ehtiram Əsgərlinin üçrəngli bayrağımızla milliləşdirdiyi şəhadətnaməsi

BAYRAQDARLAR



Baş Bayraqdar Elman Türkoğlu (Elman Həsənli) 1957-ci ildə Masallıda anadan olub. Azadlıq hərəkatı illərində Türkmənistanın Aşqabad şəhərində yaşamağına rəğmən imkan tapıb Bakıya gəlib. Azərbaycanda keçirilən mitinqlərdə fəal iştirak edib. Həmin dövrdən günümüzə kimi üçrəngli bayrağımızın tədbirlərdə ən uca zirvədə dalğalanmasında Elman Türkoğlunun müstəsta xidmətləri var.

Onu da xüsusi ilə qeyd edək ki, Elman Türkoğlu tək Azərbaycan bayrağını deyil, milli bayraqla birgə Türkiyənin, Kərkükün, Güney Azərbaycanın bayrağını da ucalarda dalğalandırır.

Milli Azadlıq Hərəkatının bayraqdarlarından biri də, hərəkatda xüsusi xidmətləri olmuş Yaşar Türkazərdir. Üçrəngli Azərbaycan bayrağını mitinqlərdə dəfələrlə dalğalandırmış, bu fəallığına görə döyülmüş və həbs edilmişdir. Çənlibel, Xalq Cəbhəsi, Müsavat təşkilatlarının fəaliyyətində yaxından iştirak etmişdir.

Yaşar Türkazər 1992-ci ildə Ağdam taburunun sıralarında döyüşüb.

Hər iki bayraqdar bu gün də Azərbaycanda demoktarik cəmiyyətin qurulması uğrunda mücadilə aparır.

Mənbə:

Nasiman Yaqublu. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası. Bakı, QANUN nəşriyyatı, 2018, 832 səh.

ÜÇRƏNGLİ BAYRAĞIMIZ BÖLGƏLƏRİMİZDƏ GÖYƏZƏN DAĞINA SANCILMIŞ BAYRAQ

1920-ci ildə amansız rus işğalçıları tərəfindən bayrağımız endiriləndə Məhəmməd Əmin Rəsulzadə demişdi: **"Əminəm, bir gün bu bayraq Azərbaycan Türkünün yanmış ürəyindən qaldırılıb öz yerinə qaytarılacaq".**

Doğrudan da heç 70 il keçmədiki Azərbaycan oğul və qızları illərlə qəlblərində gizli yaşatdıqları həmin bayrağı meydanlarda Azərbaycan səmasına qaldırdılar. Üçrəngli bayrağımız ilk dəfə 1988-ci il noyabr ayının 17-də başlayan meydan hərəkatının üçüncü günündə, 19 noyabrda mitinqdə görünüb. Həmin gündən müstəqilliyimiz elan olunan günə (18 oktyabr 1991-ci ilə) qədər Bayrağımız ətrafında fərqli, həyacanlı günlər yaşanıb. Belə ki, artıq milli bayrağımızı hamı tanıyır, hər kəs qəbul edir, sovet hakimiyyəti isə hələ davam edirdi. Həmin müəmmalı, hiss-həyacan dolu günlər dəqiq desək 1991-ci ilin fevral ayına kimi davam etmişdi. Çünki artıq 1991-ci il fevral ayının 5-də Azərbaycan Ali Sovetinin qərarı ilə Azərbaycan Sovet Sosialist Respublikası – Azərbaycan Respublikası adlandırılmışdı. Və elə həmin gün başqa bir qərarla 1956-cı ildə qəbul edilmiş Azərbaycan SSR-nin Dövlət bayrağı haqqında fərman ləğv edilərək üçrəngli Bayrağımız Dövlət Bayrağı olaraq təsdiq edilmişdir.

Qeyd edək ki, həmin qərara qədər üçrəngli milli bayrağımız qeyri rəsmi olaraq Xalq Cəbhəsinin bayrağı kimi qəbul edilib.



Azadlıq hərəkatından müstəqilliyimiz elan olunan günə qədər bayrağımızı dalğalandıran bayraq sevdalılarının həyatlarında həyəcan dolu, eyni zamanda maraqlı anlar yaşanıb. (1988-1991) Həmin 3 il ərzində paytaxt və regionlarda bayraq ətrafında müxtəlif hadisələr, maraqlı anlar yaşanıb. Məsələn keçmiş hərakatçı, araşdırmaçı Paşa Yaqub bayraq günü təbrikində yazmışdı ki:

"Azərbaycanda Milli Azadlıq hərəkatı başlayanda üç rəngli, Ay ulduzlu bayrağımızı aparıb, doğulduğum kəndin mərkəzində bir işıq dirəyinə sancdım. Kənddə bu bayrağa "Paşanın bayrağı" deyirdilər. Bir neçə gündən sonra eşitdim ki, kənd sovetinin sədri yaşlı bir kişini idarəyə çağırıb biabır edib ki, niyə Paşanın bayrağı sənin evinin tuşundakı şalbana vurulub? Təcili onu çıxar ordan. Nə isə, kişinin təlaşını nəzərə alıb, bayrağı həmin mərkəzi küçədəki başqa şalbana sancdım. İki gündən sonra yenə başqa kişini hədələdi ki, niyə bayraq sənin evinin tuşuna sancılıb?! Burdan da çıxarıb başqa bir şalbana taxdım... Beləliklə, kənddəki bü-

tün şalbanlara vurub çıxarmaqdan bayrağın sapı dəfələrlə sınıq-sınıq olurdu".

Buna bənzər, daha geniş və maraqlı hadisələrdən biri də Qazax rayonunda yaşanıb. Araşdırmalarım zamanı qarşıma diqqətimi çəkən çox maraqlı bir foto çıxdı. Fotoda Qazağın simvolu olan Göyəzən dağının zirvəsində üçrəngli bayrağımız dalğalanır.



Diqqətimi çəkən bu fotonu epizodik bir hadisə kimi kitabda verməyi planlaşdırmışdım. Rayonumuza səfərdə isə aydın oldu ki, Göyəzən dağına bayrağın sancılması heç də kiçik, epizodik deyil, əksinə çox mühüm bir hadisə olub. Azadlıq hərəkatının fəalı, həmkəndçim Mahir Nağı-

yevlə söhbətim zamanı bəlli oldu ki, Şəmkirdən üzü Qazağa bütün rayonlardan gəlmiş yüzlərlə, bəlkə də minlərlə insanın iştirak etdiyi, qucaqlaşıb xoşbəxtlikdən ağlayanların, qurbanların kəsildiyi, qonaqlıqların verildiyi bu hadisənin müəllifi elə Mahir Nağıyev olub. Müəllif M.Nağıyev olub deyə o dövr Xalq Cəbhəsinin yerli təşkilatı işin icrasını da ona tapşırıb. Mahir Nağıyev digər həmkəndçimiz Nəsib Əliyev və digər əqidədaşlarının, o cümlədən rus dostlarının iştirakı ilə anası Zərifə xanımın tikdiyi bayrağı Göyəzənin zirvəsinə qaldırıblar. Çarxla dörd tərəfə dönə bilən dörd metrlik boru ilə bayrağı dağın zirvəsində ucaldıblar. Hətta təxminən bir metr dərinliyində quyu qazaraq hadisənin Azərbaycan və rus dilində yazılmış tarixçəsini şüşə qabda torpağa basdırıb, özləri ilə apardığı sementlə üstünü betonlayıblar. Mahir bəyin dediyinə görə şüşədə basdırılmış həmin tarixçə indi də Göyəzən dağının tam zirvəsində, torpağın altında qalmaqdadır.

Yaddaşlara həkk olan bu tarixi hadisə Azadlıq Hərəkatının bir illiyində, 17 noyabr 1989-cu ildə baş verib.

Mənbə:

Azadlıq Hərəkatının fəalı, araşdırmaçı-yazar Paşa Yaqubun şəxsi arxivindən.

Azadlıq Hərəkatının fəalı, Ehtiyatda olan hərbiçi Mahir Nağıyevin şəxsi arxivindən.

Ey şəhid qardaşlarım,
Dərdimə sirdaşlarım,
Darıxıram, o məkana getmək üçün,
Ruhlarınız hey dolaşan, o yerlərə getmək üçün,
Düşmənlərin ayağını o torpaqdan kəsmək üçün,
Lal məzarlar, şəhid ruhlar
Qalxın, qalxın Siz ayağa!
Gərək yoxdur bir dayağa,
Sarılaraq biz bayrağa,
Çıxaq gedək Qarabağa.

Aidə Şirinova

QARABAĞ MÜHARİBƏSİNDƏ (1992-1993)

Qarabağda Topxana meşəsinin qırılması 1988-ci ilin anti-sovet mitinqlərinin alovlanmasına səbəb oldu və 17 noyabr 1988-ci ildə Meydan hərəkatı başladı. Beləliklə, bütün iyirminci yüzillik boyu davam edən, erməni siyasətinin azərbaycanlılara qarşı yeni mərhələsi — işğalçılıq, departasiya və tarixdə misli görünməmiş soyqırım mərhələsi, 80-ci illərin sonunda yenidən başladı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 1988-ci ildə ermənilərin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlamışdır. Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin əvvəllərindən SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi üçün fəaliyyətə başladılar.

Geniş miqyaslı döyüşlər 1992-ci ildən başlamışdır. Ən çox itkilər də məhz 1992-1994-cü illərdə baş verib. 1994-cü ildə atəşkəs imzalanana qədər ermənilər Qarabağın əksər hissəsini işğal ediblər. Rusların ermənilərə dəstəyi ilə baş verən münaqişələrdə minlərlə Azərbaycan hərbiçisi şəhid olub, yüz minlərlə azərbaycanlı məcburi köçkün olmuşdur.

1992-ci ilin fevarlın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoa-

tıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, azərbaycanlılara qarşı soyqırım baş vermişdir. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən güllələsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

***

O dövrdə Azərbaycan oğulları vətənimizin azad, təhlükəsiz olması, bayrağımızın hürr dalğalanması üçün canlarından keçirdilər. Həmin vətən oğullarından biri də məhz elə Xocalıdakı soyqırım səbəbi ilə döyüşlərə qatılan, erməni əhatəsində olmağına baxmayaraq üçrəngli bayrağı və postu tərk etməyən **Natiq Səlim oğlu Qasımovdur.**

Natiq Qasımov 1971-ci ildə Gədəbəydə anadan olub. Sonradan ailəsi ilə birlikdə Mingəçevir şəhərinə köçüb. Məktəbi bitirdikdən sonra kinomexanik işləyib. Rusiyanın Krasnoyarsk vilayətində Daxili Qoşunlarda hərbi xidmətdə olub. 1991-ci ildə ordudan tərxis olunduqdan sonra könüllü olaraq vətənin müdafiəsinə gedib, Ağdamda döyüşüb. Döyüş bölgəsindən evə qayıtdıqdan az sonra Xocalı soyqırımı baş verir. O, yenidən Qarabağ savaşına qayıdır.

1992-ci ilin martında Natiqin mənsub olduğu batalyon Ağdamın Xramort kəndi yaxınlığındakı əhəmiyyətli bir yüksəkliyi ələ keçirir. Döyüşlərdə həlak olanlar da

olur, itkin düşənlər də olur. Natiq 6 nəfər dostu ilə birlikdə həmin yüksəklikdəki kilsədə qalır. Bütün dostları həlak olan Natiq 5 gün təkbaşına ermənilərlə döyüş mövqeyini tərk etmir. Sonda ermənilər əsir götürdükləri iyirmi iki nəfər Xocalı sakinini o təslim olmayacağı halda qətlə yetirəcəklərini bildirirlər. Bu xəbəri Natiqə əsir götürülmüş, Xocalıda məktəb direktoru işləmiş Cəfər Cəfərov çatdırır. C.Cəfərovun dedikləri:


"Yuxarı baxdım. Gecədən islanmış üçrəngli bayraq ağır-ağır yellənirdi. Bayrağa baxa-baxa ağladım. O, üzü üstə yıxılmışdı. Yaxınlaşıb yaralı olub-olmadığını soruşdum. Güclə cavab verdi ki, yaralı deyil. Su istədi. Su olmadığından ona bir neçə parça quru çörək verdim. Könülsüz də olsa çörəyi yedi. Dedi ki, komandirim məni altı nəfərlə bura göndərib. Yoldaşlarımdan üçünü ermənilər öldürdü, üçündən isə xəbərim yoxdur. Beş gündür ki, tək qalmışam.

Natiqdən niyə postu tərk etmədiyini soruşdum. Dedi ki, komandirə söz vermişəm, bayrağı və postu qoyub gedə bilmərəm. Kömək gözlədim, gəlmədi".

Cəfər Cəfərov ermənilərin tələbini Natiqə çatdırıb. Natiq deyilənlərə razı olmaq istəməsə də, sonda iyirmi iki nəfərin güllələnməsinə razı olmayıb. Bir əlində bayraq, o biri əlində isə avtomatda olan iki gülləni havaya atıb. Ermənilər tökülüşüb gəlib. Kilsəni aramsız güllə atəşinə tutublar. Heç kimin olmadığını görəndə isə pərt olub daha da əsəbiləşiblər.

Həmin vaxt orada iki xarici jurnalist də olub. Jurnalistlərdən biri Rusiya Federasiyasında nəşr olunan məşhur "Oqonyok" jurnalının müxbiri Konstantin Smirnov, digər

isə italiyalı fotomüxbir Enriko Sarrini idi. Fotokamera axşamın toranında əlində üçrəngli milli bayraq düşmənə gözləri nifrətlə zillənmiş Natiqə tərəf yönəlir. Jurnalın 1992-ci ilin aprel nömrəsində Natiqin əlində bayraq erməni hərbiçiləri tərəfindən əsir götürülməsini əks etdirən foto dərc olunub.



Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən, ermənilər tərəfindən əsir və girov götürülmə faktı danılan şəxslərin siyahısında Natiq Qasımovun da adı vardır. Dövlət Komissiyasının dəfələrlə etdiyi müraciətlərə baxmayaraq, erməni tərəfi indiyədək Natiqin sonrakı taleyini Azərbaycandan və beynəlxalq təşkilatlardan gizlətməkdədir.

Oxuduğunuz bu kitab yazılan günlərdə isə Natiq Qasımovun sağ olması barədə xəbər yayıldı. Ümidlə arzu edirik ki, bu xəbər düzdür.

***

Müharibə illərində bayrağımızı canı bahasına da olsa ermənilərə təhvil verməyənlərdən biri **Şakir İsgəndərovdur**. 1958-ci ildə Laçın rayonunun Oğuldərə kəndində anadan olan Şakir İsgəndərov məktəbi bitirdikdən sonra Bakıya gəlib, orada fəhlə işləyib. 1977-1979-cu illərdə Rusiyanın Çita şəhərində hərbi xidmətdə olub. Hərbi xidmət keçdikdən sonra Bakıya qayıdıb, zavodda işləyib.

Qarabağ müharibəsində və döyüşlərdə iştirak etmək üçün 1991-ci ildən etibarən könüllülərdən ibarət batalyona qoşulmuşdur.

O, öz dəstəsi ilə 1993-cü ilin aprelin ortalarında Laçın rayonunun Oğuldərə kəndində Seyid Məmmədin qalası deyilən ərazidə məskunlaşıb və ermənilərin mühasirəsində qalmışdı. İsgəndərovun üzərində kiçik quran və Azərbaycan bayrağı var idi.

İsgəndərov axşamlar kəndlərinə gedib, oradan yemək tapıb, gizləndiyi yerə gətirirdi. Daha sonra, gecələr kəndlərdən yemək toplayıb, gündüzlər Seyid Məmməd deyilən yerə çəkilirdi. 1993-cü ilin mayın 14-də ermənilər onların yerini bildikləri üçün, İsgəndərov 19 nəfərlik dəstəsi ilə oradan qaçmağı qərara aldılar. Dəstənin dördü rus, qalanları isə azərbaycanlı idi. 1993-cü ilin may ayının 20-də xeyli kolluqda gizləndikdən sonra ermənilər çıxıb getdilər. Dəstə Güləbird çayının qırağı ilə üzü Güləbird kəndi istiqamətinə gedirdilər. Çayı o tərəfə keçmək lazım idi. Çay

axını güclü olduğundan, çətinliklə də olsa çayı keçə bildilər. 54 gün mühasirədə qalandan sonra Azərbaycan postuna çatmışdılar.

Şakir İsgəndərov mühasirədə qaldığı 54 gün ərzində üçrəngli Azərbaycan bayrağını heç kimə verməyərək göz bəbəyi kimi qoruyub.



***

Hərbiçilərimizin bayraqla çəkdirdiyi bu foto 1992-ci ilin 6-8 avqust tarixlərində çəkilib. Həmin tarixdə ordumuzun keçirdiyi əməliyyat nəticəsində Gədəbəy rayonunun **Başkənd kəndi** Azərbaycanın nəzarətinə keçib.



Üçrəngli bayrağımızın Başkənddə dalğalandığı bu fotoda soldan-sağa leytenant Oruc Mahmudov (Şəmkir), leytenant Tahir Vəliyev (Şəmkir), kapitan İlham Əliyev (Şəmkir), tankın sürücü-mexaniki, sıravi İlqar Məhərov (Şəmkir), sıravi Xəqani İsmayılov (Şəmkir), arxada ayaq üstə duranlar-leytenant Zirəddin Güvəndiyev (Şəmkir), gizir Mübariz Balayev (Şəmkir).

Qeyd edək ki, ermənilərin Başkənd kəndinə gəlişi XIX əsrin ortalarından başlayıb. Onlar burada yerli bəylərin mal-qarasını otarırdılar. İlk erməni ailələri burada yerli bəyin icazəsi ilə 1858-ci ildən məskən salıblar. 1905-1906-cı illər, 1918-1920-ci illər hadisələri zamanı isə azərbaycanlıları sıxışdırıb kənddən çıxardıblar.

Başkənd qəsəbəsi 1920-ci illərdə Sovet rəhbərliyi tərəfindən Ermənistana verilmişdir. 1992-ci ildə isə Azərbay-

can ordusunun keçirdiyi uğurlu əməliyyat nəticəsində ərazi nəzarəti Azərbaycana keçmişdir.

Mənbə:

Natiq Qasımovun yaxın dostu və silahdaşı, Mübariz İbrahimov adına rəsm qalereyisanın rəhbəri Namiq Əliyevin şəxsi arxivindən.

http://karabakhinfo.com/fotofakt-5/

Başkənd əməliyyatını həyata keçirən hərbi hissənin komandir müavini, ehtiyatda olan mayor Dilqəm Əliyevin şəxsi arxivindən.

RAMİL SƏFƏROV



Bayrağımızla bağlı daha bir olay 2004-cü ildə baş verdi. Bu hadisə nəinki Azərbaycanda və regionda, hətta Avropada böyük rezonansa səbəb oldu. 2004-cü ilin yanvar ayında keçmiş sovet ölkələrindən (hər birindən iki zabit olmaqla) hərbiçilər Budapeşt şəhərinə 3 aylıq ingilis dili kursuna dəvət almışdılar. Azərbaycandan da iki zabit, Anar Əliyev və Ramil Səfərov qatılmışdı. Qeyd edək ki, 1977-ci ildə Cəbrayıl rayonunda dünyaya gələn Ramil Səfərov, 1988-ci ildən 1993-cü ilə qədər ermənilərin törətdikləri vəhşilikləri, tökdükləri qanı öz gözləri ilə görüb.

Kurs müddətində erməni hərbiçiləri təhqiramiz hərəkətlərlə dəfələrlə Azərbaycan zabitlərini təxribata çəkiblər. Hərbiçilərimiz hər dəfəsində bu təxribatlardan yayınıblar.

Həmin günlərdə litvalı bir zabit doğum gününü qeyd edirmiş. Ordumuzun zabitləri ona Azərbaycan bayrağı təsvir edilmiş brelok hədiyyə ediblər. Axşam saatlarında Ramil Səfərov dəhlizdə siqaret çəkirmiş. Bu zaman o erməni hərbiçisi Qurgen Marqaryanın litvalı zabitlə söhbətlərini eşidib. Həmin söhbət zamanı R.Səfərov eşidib ki, Marqaryan Azərbaycan bayrağını, bayrağın rənglərini təhqir edir.

Ramil və digər azərbaycanlı zabit aidiyyatlı şəxsə yaxınlaşıb, Marqaryanın müqəddəs bayrağımızı təhqir etdiyini ona bildiriblər. Amma həmin şəxs bunlara etinasız yanaşıb.

Xocalı faciəsinin ildönümü gününə yaxın baş vermiş bu hadisəyə hərbiçimiz bu dəfə tab gətirə bilmir. Vətənə dönməyə 20 gün qalmış – fevral ayının 19-da kurslarda iştirak edən Qurqen Markaryan adlı erməni zabitini Azərbaycan bayrağını təhqir etdiyinə görə qətlə yetirir.

Ramil Səfərov elə həmin tarixdə Budapeştin hüquq-mühafizə orqanları tərəfindən həbs olunur. Məhkəmədə Qurgen Marqaryanın Azərbaycan bayrağını təhqir etdiyi təsdiqlənib, lakin R.Səfərov ömürlük azadlıqdan məhrum edilib. Məhkum yalnız 30 il sonra əfv olunmaq üçün dövlət orqanlarına müraciət edə bilərmiş.

Ramil Səfərov ömrünün 8 ildən artığını məhbusluq həyatı yaşayıb. 31 avqust 2012-ci ildə Azərbaycana ekstradisiya edilərək Azərbaycan Respublikası Prezidentinin xüsusi sərəncamı ilə əfv edilərək cəza çəkməkdən azad edilmişdir.

Onun məhkəmədə söylədikləri çox ibrətamizdir: *"Mənim ölkəmin torpaqlarının 20 faizi bu gün də ermənilərin işğalı altındadır. Mənim doğulduğum şəhər mənim doğum günümdə işğal edilib, hələ də işğal altındadır. Tarixdə bənzəri çox az olan vəhşiliklə günahsız insanlar, uşaqlar, qadınlar, yaşlılar öldürülüb. Və onların çəkilişləri bu gün hələ də durur və mənim öz qohumlarım, sevdiklərim öldürülüb. Mənim ailəm də daxil olmaqla bir milyondan artıq insan öz torpaqlarından zorla köç ediblər.*

Erməni hərbiçiləri tərəfindən edilən həqarətlər, sataşmalar o içimdəki basırmağa çalışdığım, önünə əngəl çəkdiyim anları təkrar canlandırdı. Fəqət Marqaryanın özəlliklə bayraqla bağlı qəbul edilməz həqarətləri və divarı yumruqlayaraq "oxuma zamanı deyil, savaş zamanıdır" deyə təhrik etməsi təəssüf ki, yaşamış olduğum iç savaşı itirməyimə səbəb oldu.

Özünüzü bir anlıq da olsa mənim yerimə qoymağınızı, heç bir əlavə ünsürün etkisi altında qalmadan ədalətli qərar verməyinizi sizlərdən rica edirəm və tələb edirəm".

Mənbə:
https://az.wikipedia.org/wiki/Ramil_Seferov

DÖVLƏT BAYRAĞI MEYDANI

2007-ci il noyabr ayının 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliev Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə sərəncam imzalayıb. 2009-cu il noyabrın 17-də isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncam imzalayıb. Hər il 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Bayraq meydanının təməli 2007-ci il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Meydan üçün seçilmiş yer dövlət bayrağının paytaxtın müxtəlif yerlərindən görünməsinə imkan yaradır.

20000 m^2 ərazisi olan meydanda ucaldılmış dayağın hündürlüyü 162 m, bünövrəsinin diametri 3,2 m , bünövrəsinin üst hissəsinin diametri 1,09 metrdir. Qurğunun ümumi kütləsi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadrat metr, kütləsi isə təqribən 350 kiloqramdır.

Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himninin mətni və Azərbaycan xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

Meydanın açılışı 2010-cu ilin sentyabrın 1-də keçirilmişdir.



Qeyd edək ki, Azərbaycanın fərqli regionlarında bayraq meydanları və bayraq muzeyləri yaradılıb. Bunların bir çoxu barədə Carçı Araşdırma Mərkəzinin könüllüsü Cavid Ələmdar ayrıca bir məqalə yazıb. Məqalə irəlidəki bölmədə yer alıb.

Mənbə:
Könül İmamverdiyeva. Azərbaycan Bayrağı.
Dənizkənarı Bulvar İdarəsi. Bakı: 2017.

“Carçı” Araşdırma Mərkəzinin könüllülərinin kitab üçün hazırladığı araşdırma məqalələri

AZƏRBAYCANDA BAYRAQ MEYDANLARI VƏ MUZEYLƏRİ

Ginnes Dünya Rekordları Təşkilatı Azərbaycan Dövlət Bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu 2010-cu ildə təsdiq edib. Bakıda olan bu bayrağın eni 35, uzunluğu 70 metr, kütləsi təqribən 350 kiloqram, dirəyinin hündürlüyü isə 162 metrdir.

Göygöl rayonunda ucaldılan bayraq 50 metr hündürlüyündədir. Şirvanda 76 metr, Lənkəranda 70, Qaxda 63, Astarada 65, Mingəçevirdə 42, Xaçmazda 65, Qusarda 65, Masallıda 62, Kürdəmirdə 62, Qobustanda 50, Cəlilabadda 41, Gəncədə 60, Saatlıda 82, Salyanda 42, Balakəndə 72, Tərtərdə 65, Naxçıvanda 57, Sabirabadda 97, Biləsuvar 56, Lerik 36, Şəkidə 72, Neftçalada 36, Şabran 26, Şəmkir 98, Oğuzda 50, Yevlaxda 80, Bərdədə 70, Quba 78, Goranboyda 72, Gədəbəydə isə 70 metr hündürlüyündədir. Azərbaycanda bölgələr içərisində ən hündür bayraq İmişli rayonundadır. Burada inşa edilən bayraq dirəyinin uzunluğu 100 metrdir.

Ağdam Bayraq Muzeyi Ağdam rayonunun Quzanlı qəsəbəsində 3 dekabr 2016-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib. Ümumi sahəsi 300 kv metr olan müzeydə 146 eksponatın sərgilənməsi üçün hər cür şərait yaradılıb. Muzeydə tarixin müxtəlif dövrlərinə aid eksponatlar, Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin bayraq-

ları, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə müxtəlif dövlət rəmzləri qorunur.

Bayraq muzeyində müstəqillik dövrümüzün tarixi hadisələrinə də geniş yer verilib. Bütün bunlar Ağdam gənclərində və rayona gələn qonaqlarda şanlı tariximiz haqqında geniş təsəvvür yaratmağa imkan verir. Bu fakt həm də cəbhə bölgəsində yaşayan soydaşlarımızda, xüsusi ilə gənc nəsildə vətənpərvərlik hislərinin daha da güclənməsinə xidmət edir.

Ağdam rayonunun girişində, Bayraq Meydanının yaxınlığındakı parkda yerləşən bu muzeydə məktəblilər tez-tez tədbirlər keçirir.

Ağdam Bayraq Muzeyi haqqında məlumat toplamağa bizə Ağcabədi *rayonundan olan hərbçi Səid Hüseynov köməklik göstərdi.*

Beyləqan Bayraq Muzeyinin inşasına 2011-ci ilin oktyabr ayında başlanıb. Muzeyin tikinti sahəsi 420 kvadrat metrdir. Bayraq muzeyinin ərazisində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb.

Muzey binasında müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin, xanlıqların bərpa edilmiş bayraqları, həmçinin bayraqların elementləri, gerblər və sair sərgilənir.

Bayraq muzeyi Azərbaycan tarixinin təbliğində mühüm rol oynamaqla bərabər, muzeydə gənc nəslin dünya görüşünün, bilik və bacarığının artırılmasına hər tərərfli imkan yaradılıb. Muzeydə 129 eksponat sərgilənir. Burada da xəritələr, konistitusiyalar, orden və medallar, müxtəlif dövlət rəmzləri qorunur.

Muzeydə Azərbaycan Xalq Cümhuriyyətinə aid əskinazlar, poçt markaları, müxtəlif güc nazirliklərinin zabitlərinin hərbi geyim formaları sərgilənir. Burada müstəqillik dövrümüzün tarixi hadisələrinə də geniş yer verilib.

2016-cı il 12 noyabrda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqanda Bayraq muzeyininin açılışında iştirak edib.

Məlumatı Beyləqan rayon Heydər Əliyev Mərkəzinin direktoru Yeganə Məmmədova verdi.

Sabirabad Bayraq Muzeyinin inşasına 2017-ci ilin fevralında başlanılıb və həmin ilin sentyabrında başa çatdırılıb. Muzeyin binası iki sərgi zalından və müxtəlif yardımçı otaqlardan ibarətdir. Sərgi zalında 6 bölmə yaradılıb. Burada Azərbaycan xanlıqlar dövrünün xəritəsi və bayraqları, Orta əsrlərə aid döyüşçülərin geyimləri, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti, SSRİ və müstəqillik dövrünün konistitusiyaları, gerbləri, bayraqları, poçt markaları, orden və medallar nümayiş olunur.

Bayraq muzeyinin yerləşdiyi meydanın ərazisi genişləndirilərək iki hektara çatdırlıb. Hündürlüyü 97 metr olan dövlət bayrağı dirəyinin postament hissəsinin ətrafı abadlaşdırılıb və yaşıllıq salınıb. Yeni işıqlandırma sistemi yaradılıb, uşaqlar üçün atraksionlar qoyulub. Meydanda yenidən iki fəvvarə qurulub.

28 noyabr 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad Bayraq Muzeyinin açılışında iştirak edib.

Sabirabad Bayraq Muzeyi və Bayraq Meydanı haqqında məlumatları Sabirabad Heydər Əliyev Mərkəzi fondunun baş mühafizi Səlmi Mehdiyeva və Sabirabad İcra Hakimiyyətinin tikinti şöbəsinin aparıcı məsləhətçisi Rəsul Mehdiyev verdi.

Saatlı Bayraq Muzeyi Saatlı Bayraq meydanı ərazisində yerləşir. Bayraq meydanı Saatlı rayonundan olan şəhidlərin barelyefi "Şəhidlər" və 31 mart Azərbaycanlıların Soyqırımı abidələrinin ərazisi ilə birləşərək ümumi kompleks şəklində iki hektar ərazini əhatə edir. Bayraq meydanının ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılmış, müasir işıqlandırma ilə yanaşı iki fəvvarə quraşdırılmışdır.

Şəhərin giriş hissəsində yerləşən meydanda 82 metr hündürlüyündə bayraq dirəyi ucaldılmış, uzunluğu 24 metr, eni 12 metr olan dövlət bayrağı asılmışdır.

Kompleksin ərazisində orta əsrlərin memarlıq ənənələrinə uyğun qala tipli daş hasarlar, eləcə də tağşəkilli hasarlar hörülmüşdür. Meydanda orta əsrlər Azərbaycan əsgərinin 5 heykəli ucaldılmışdı.

Ümumi sahəsi 124 kv metr olan bayraq Muzeyinin aypara şəkilli binası sərgi və iki köməkçi otaqdan ibarətdir. Muzeyin "Azərbaycan tarixi dövlətləri" adlı bölməsi Manna dövlətindən başlayaraq Azərbaycan Xalq Cümhuriyyətinədək olan dövrü əhatə edir. Digər bölmədə Dədə Qorqud, Aristotel, Şah İsmayıl Xətai, Şeyx Məhəmməd Xiyabani, Hüseyn Cavid və Mikayıl Müşfiqin dövlətçilik və bayraq haqqında kəlamları yer almışdır.

Saatlı Bayraq Muzeyini fərqləndirən cəhətlərdən biri muzeyin sərgi salonunda Azərbaycan dövlətçilik tarixində

və mədəniyyətində mühüm rol oynayan dahilərin, mütəfəkkirlərin, şairlərin də daxil olduğu 27 rəsm əsəri boya ilə divar üzərində işlənmişdir. Muzeydə həmçinin 1918-1991-ci illərdə istifadə olunan Azərbaycan bayraqları, müstəqil Azərbaycan orderləri və onlar haqqında məlumatları əks etdirən lövhə vardır. Numizmatika bölməsində isə qədim sikkələr, XIX və XX əsrin nadir eksponatları, Səfəvi dövləti, Gəncə və Qarabağ xanlıqlarının bayraq ucluqları, XIX əsrə aid şəhərlərin gerbləri nümayiş olunur. Azərbaycan ərazisində mövcud olan qədim dövlətlərin və eləcə də xanlıqlar dövrünün bayraqları muzeyin sərgi salonuna xüsusi yaraşıq verir.

Saatlı Bayraq Meydanının inşasına 2013-cü ilin may ayında başlanmışdır. 2013-cü ilin avqust ayının 29-da Azərbaycan Respublikasının Prezidentinin iştirakı ilə açılışı olmuşdur.

Saatlı bayraq muzeyi haqqında məlumatı Saatlı Rayon İcra Hakimiyyətinin məsul işçisi Rəşad Qəhrəmanov verdi.

3 iyul 2010-cu ildə Türkiyənin Bursa Yıldırım bələdiyyəsinin önündə Yeddi Dövlət-Bir Millət Bayraq Meydanının açılışı olmuşdur. Bu meydanda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Quzey Kıbrız Türk Cümhuriyyəti, Özbəkistan, Türkiyə və Türkmənistanın bayraqları göylərdə dalğalanır.

Cavid Ələmdar
İlahiyyatçı-Araşdırmaçı

YADDAŞLARDA YAŞAYAN ÜÇ RƏNGLİ AZƏRBAYCAN BAYRAĞI

Bayraq bir dövlətin və millətin atributlarından biridir. Millətin ucalıq rəmzidir, qürur mənbəyidir. Tarixən Azərbaycanda mövcud olmuş dövlətlərin müxtəlif bayraqları olub. Amma ilk demokratik Cümhuriyyət dövründə meydana gələn üç rəngli bayrağın digər bayraqlardan fərqi çoxdur. Belə ki, əsrin əvvəllərində Əli bəy Hüseynzadədən gələn "Türkləşmək, avropalaşmaq və islamlaşmaq" kimi bir fikri böyük ideoloq Məhəmmədəmin Rəsulzadə siyasi anlama daşımaqla həm də üç rəngli bayrağımızda ehtiva etdi. Və bu coğrafiyada yaşayan soyu kökü eyni olan və müxtəlif düşüncəli insanlara (türkçü,avropaçı ,islamçı) bir amal uğrunda ölməyi bacarmalısınız mesajını verdi. Hər birinizin inandığı ideologiya bu üç rəngli bayraqda əks olunub dedi.

Azərbaycan Cümhuriyyəti 1918-ci ilin noyabr ayının 9-da üç rəngli bayraq haqqında qanun qəbul etdi. Bu qərardan sonra üç rəngli bayrağımız ilk dəfə 1918-ci ilin noyabrın 17 də ingilis generalı Tomson Ənzəlidən Bakıya gələndə Dəniz vağzalında, onu qarşılanma mərasimində dalğalandı. Amma general bu bayrağın yığışdırlması haqqında göstəriş verdi.

Sonralar 1918-ci ilin dekabrın 7-də Azərbaycan Cümhuriyyətinin parlamentinin ilk iclasında Məhəmmədəmin Rəsulzadə bu bayraq fonunda parlamentin ilk açılış nitqi-

ni söyləyir. Bununlada bayrağın bir dövlət və millət üçün önəminə diqqət çəkir. Hətta ingilislər Azərbaycan Cümhuriyyətinin hökümət binaları üzərində üç rəngli bayrağımızın dalğalanmasına icazə vermirdilər. Ancaq parlamentin fəaliyyət göstərdiyi müddətdə həftənin 1-4-cü günləri icazə verirdilər. Bayrağımızın enməməsi üçün Cümhuriyyəti quran kişilər daha çox səylə çalışırdılar ki, qürur mənbəyimiz olan bu üç rəngli bayraq daim dalğalansın.

1920-ci il aprelin 28-də Azərbaycan Cümhuriyyəti bolşeviklər tərəfindən işğala məruz qaldı. Cümhuriyyət liderlərinin bir çoxu bolşevik terrorundan xilas olmaq üçün İranda, Türkiyədə, Polşada mühacir həyatı yaşamalı oldu. Və üç rəngli bayrağı mühacirətə aparıb orada dalğalandırdılar. Mühacir həyatı yaşaya bilməyən, Sovet rejimində qalan Cümhuriyyət sevdalı insanlar bayraq sevgisini qəlblərində yaşatdılar. Bunu gizli şəkildə mahnılarda, şeirlərdə dilə gətirdilər. Bunlardan biri məşhur xanəndə Xan Şuşinskidir. Xan Şuşinski müəllifi olduğu "Şuşanın dağları" mahnısında üç rəngli Azərbaycan bayrağı haqqında da bir çox gizli simvolikalar vardır. Bu mahnıda əsas bayraq, vətən sevgisi və müstəqillik həsrəti duyulur. Sovet dönəmində üç rəngli Azərbaycan bayrağının qadağan edildiyi bir dönəmdə Xan Şuşinski bayrağımızı simvolikalarını mahnısında belə təsvir edirdi:

Şuşanın dağları başı dumanlı,
Şuşanın dağları başı dumanlı,
Qırmızı qoftalı, yaşıl tumanlı,
Dərdindən ölməyə çoxdu gümanlı.

Dağların başı dumanlı deməklə, mavi səmaya, qırmızı qoftalı deməklə dağın lalələr bitən döşünə, yaşıl tumanlı deməklə isə dağın yamaclarına işarə edərək bununlada Azərbaycan bayrağının simvolik təsvirini yaradırdı.

Ay və ulduzun təsviri
Ay qız, bu nə qaş göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasanda balam, barı gül.

Bu sətirlərdəki məna Azərbaycan bayrağındakı ay-ulduzu ifadə edirdi. Mahnının ikinci misrasındakı qaş-göz işarəsi ayparaya və ulduza, tel isə onun gözəlliyinə və saçaqlarına işarə idi. Hətta bir zamanlar Xan Şuşinskini bu mahnının sözlərinə görə təqib də etmişdilər və Xan Şuşinski məcbur olub mahnının mətnində "Şuşanın dağları deyil dumanlı" əvəzlənməsini də etməyə məcbur olmuşdu.

Yaddaşlarda yaşayan bayraq haqqında digər maraqlı fakt isə bayrağa olan sevgisini canı və qanında yaşadan görkəmli diplomat və siyasi xadim, Azərbaycan Cümhuriyyəti dövründə Xarici işlər nazirinin müavini olmuş Adil xan Ziyadxanlı, Azərbaycan Cümhuriyyəti bolşeviklər tərəfindən işğal olunduqdan sonra İrana gedib, orada mühacirət həyatı yaşayanda baş verib. İranda yaşadığı dövrlərdə Cümhuriyyətə və bayrağa olan sevgisinini Tehranda yaşadığı evin eyvanından asmaqla nümayiş etdirib, yaşadıb. Bir gün şəhərin məmurlarından biri Adil xana

"Olmayan bir hökümətin bayrağını asmaq nəyə lazımdır" - deyir.

Bu sözlərdən gözləri dolan Adil xan bayrağı eyvandan götürməli olur .

Bayraqla bağlı digər mühüm bir maraqlı fakt mühacirət nümayəndələrinin önəmli simalarından biri, həm də Musavat partiyasının Rəsulzadədən sonra başqanı Mirzə Bala Məhəmmədzadə ölüm anında ən yaxın adamlarına "Onu Azərbaycan bayrağına büküb dəfn etməyi" vəsiyyət etməsidir.

Tədqiqatçı Əfqan Vəliyevin dediyinə görə vaxtilə özü ilə götürdüyü bayrağı Mirzə Bala Məhəmmədzadə Türkiyəyə aparmışdır. Mirzə bala Məhəmmədzadə həmin bayrağı mənəvi oğlu bildiyi mühacir İldəniz Qurtulana əmanət etmiş, İldəniz Qurtulanda tədqiqatçı Əfqan Vəliyevə əmanət etmişdir. Sonralar həmin bayraq Əfqan Vəliyev tərəfindən Azərbaycana gətirilərək baş nazir Novruz Məmmədova təqdim edilmişdir.

Sovet dövründə qadağan edilmiş üç rəngli Azərbaycan bayrağı 5 fevral 1991-ci ildə həmin il müstəqilliyini elan etmiş Azərbaycan Respublikasının Ali Soveti tərəfindən təsdiq edilmişdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra başlayan Qarabağ müharibəsində Azərbaycanın azadlığı uğrunda döyüşən igid oğullarının ən böyük and və istəyi şəhid olmaq və öləndə Azərbaycan bayrağına bükülərək dəfn olmaq idi. .Bunlardan biri Astara rayo-

nunun Əzərüd kəndində anadan olan, hərbi xidməti başa vurduqdan sonra könüllü olaraq xidmətini yeni yaradılan Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin kəşfiyyatçı-diversant taborunda davam etdirib və 17 il Azərbaycan ordusunda şərəflə xidmət edən Pəncəli Teymurov olmuşdu. Pəncəli 2013-cü il avqust ayında ailə həyatı qurdu. Amma Pəncəli doğmalarının, elin, obanın şadyanalıq etdiyi toyda özünə bunları arzu etdi: "Dostlar, həqiqətən bəzi şeylər var ki, bizim əlimizdə deyil. Amma mən sidq ürəklə deyirəm. Hər zaman, hər an xalqım üçün, torpağım üçün, Vətənim üçün canımdan,qanımdan keçməyə hazıram. Həmişə özümə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın". Hər bir Azərbaycan oğlunun ən böyük arzu məhz bu cür olmalıdır.

Bayrağımızla bağlı maraqlı həm də mühüm bir faktı sizlərin diqqətinə çatdırmaq istəyirəm:

Yuxarıda da qeyd etmişik ki , Azərbaycan Cümhuriyyəti dövründə üçrəngli bayraq haqqında qanun 1918-ci ilin noyabrın 9-da qəbul edilmişdi. Amma bu qanundan sonra ilk dəfə Azərbaycan bayrağı ingilis generalı Tomson Ənzəlidən Bakıya gəldikdə, Dəniz vağzalında qarşılanma mərasimində qaldırılmış və ətraf üçrəngli bayraqlarla bəzədilmişdi. Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra

üçrəngli bayraq qadağan edilmişdi. Gizli şəkildə evlərdə saxlanılmışdı.

Amma 1988-ci ildə meydan hadisələri zamanı, məhz həmin ilin 17 noyabrında meydanlara Azərbaycanın üçrəngli bayrağı gətirilmişdi. Və 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilib. Sonralar Azərbaycan respublikasının prezidenti İlham Əliyev Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə 2007 -ci ilin noyabrın 17-də və 2009-cu il noyabrın 17- "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncam imzalayıb. Ehtimal edirəm ki , bayraqla bağlı önəmli tarixlərin "17 noyabr"a təsadüf etməsinin kökü Cümhuriyyət dövrünə bağlıdı. Həm meydan hərəkatı dövründə üçrəngli bayrağı meydana gətirən insanlara həm də mərhum prezident Heydər Əliyevə və prezident İlham Əliyevə (ixtisasca tarixçi olduqlarından dolayı) bu faktlar bəlli olduğu üçün simvolik olaraq məhz "17 noyabr" tarixinə üstünlük vermişlər. Bu faktları sizlərin diqqətinə çatdırmaqda məqsəd bayraq və bayrağa olan sevgini aşılamaqdır. Gələcək nəsillər bu faktları unutmasınlar, yaşatsınlar və özlərindən sonra gələn gənc nəsillərə ötürsünlər. Necə ki ,böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadə bayrağa olan sevgisini şeirində belə ifadə edirdi :

Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq - öz yurduma öz hakimliyim.

Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

Biz də belə sevək və tərənnüm edək .

Elmar Həsənli
Tarixçi-Tədqiqatçı

ÜÇRƏNGLİ BAYRAĞIMIZ FİLMLƏRİMİZDƏ

Azərbaycan istiqlalı Turan idellarının genişlənməsində mühüm rol oynamışdır. Azərbaycan xalqının başlanğıcı daha çox poetik dillə bağlı olduğundan 1918-ci ildə yaranan cümhuriyyətimizə poetik ümid bəslənmişdir. O dönəmdə Əhməd Cavad və Cəfər Cabbarlı üçrəngli bayrağa şeirlər həsr etmişdilər.

Kinoda isə vəziyyət fərqli olmuşdu. 1919-cu ildə cümhuriyyətin bir illiyi ilə əlaqədar "Azərbaycan müstəqilliyinin ildönümü münasibəti ilə təntənə" sənədli-xronikası çəkilmiş və bu film "Ekspress" ,"Rekord" və "Forum" kimi o zamankı kinoteatrlarda nümayiş olunmuşdu. Cümhuriyyət dövründə, 1919-cu ildə on altı kinemotoqrafçı fəaliyyət göstərmişdi.

Lakin yuxarıda adını qeyd etdiyimiz filmi təssüf ki, günü bu gün də tapa bilməmişik. Cümhuriyyətin yeganə kadr yadigarı əlimizdə yoxdur. Çox güman bolşeviklər bu filmi ya məhv etmişlər, ya da Rusiyaya aparmışdılar. Bu filmi tapmaq fikrimcə kino tətqiqatçıları üçün vəzifə olmalıdır. Cümhuriyyətə aid yeganə xronikal filmin tapılması barədə işlər görülsə çox yaxşı olardı.

Bolşeviklər hakimiyyətlərinin ilk ilindəcə özlərinin ideologiyalarına uyğun filmlər çəkmişdilər. Bu filmlərin içində Ənvər paşanın da göstərildiyi "Şərq xalqlarının birinci qurultayı" sənədli filmi, 1918-ci ildə bizi soyqırıma uğradan "26-ların dəfn mərasimi" sənədli filmi də çəkilmişdi. O dövrün maraqlı zidiyyəti kinomuza bu şəkildə yansıya

bilmişdi. "Şərq xalqlarının qurultayı" filmində isə ilk sovet Azərbaycanı bayrağı göstərilir. Belə ki zahirən Türkiyə bayrağına çox bənzəyən bu bayraqda fərq yalnız ay ulduzun sağa yox, sola doğru təsviriylə bağlıydı. O dövrdə milli kino kadrlarının olmamasına isə Cəfər Cabbbarlı "Azərkino hara gedir" məqaləsində daha geniş şəkildə toxunmuşdu.

1954-cü ildə Sergey Vasiliyev tərəfindən çəkilən rus-türk müharibələrindən bəhs edən "Şipki qəhrəmanları" bədii filmində osmanlılar tərəfindən qaldırılan iki zolağı yaşıl, ortası qırmızı olan bayraq bu günkü üçrəngli bayrağımıza hardasa bənzərliyi var. Həmin hadisələr 1870-ci illərdə baş verdiyindən Azərbaycan cümhuriyyətindən söhbət gedə bilməzdi.

1970-ci illərdə Azərbaycan kinosunda tarixi mövzulu filmlərin çəkilməsi vüsət aldı. Uzaq tarixlə bağlı "Nəsimi", "Babək", "Dədə Qorqud" filmləriylə yanaşı Azərbaycanda sovet hökümətinin qurulmasıyla da bağlı ekran işləri ortaya çıxdı. Sovet ideologiyası çərçivəsində bu filmlər çəkilsə də, burada cümhuriyyətlə bağlı mesajlar var. Azərbaycanın üçrəngli bayrağı ilk dəfə Nəriman Nərimanov barədə çəkilmiş "Ulduzlar sönmür" filmində göstərilmişdir. İsa Hüseynovun ssenari müəllifi, Əjdər İbrahimovun rejissoru olduğu filmdə bayrağımız hərbi parad zamanı göstərilir. Bu paradda guya Azərbaycan hökuməti Denikin ordusuna əsgərlər göndərir. Təbii ki, tarixi faktlar bunu inkar edir. Baş nazir Nəsib bəy Yusifbəylinin (Adil İsgəndərov) qəbul etdiyi parad zamanı üçrəngli bayrağı da-

şıyanlardan biri orta asiyalı bir əsgərdir. Bu məqam diqqətçəkicidir. Yuxarıda qeyd etdiyimiz Turançılıq motivi bu filmdə də öz təsirini göstərir. Parad zamanı bolşeviklər təxribat yaradırlar. Bu qarşıdurma səhnəsi zamanı üçrəngli bayraq daha aydın şəkildə görsənir. Lakin bayrağın təsvir olunmasında təhrif var. Belə ki, üçrəngli bayrağın mavi hissəsinin qırağında kiçik ay-ulduz var. Güman ki, rejissor burada sovet Azərbaycanı bayrağından təsirlənib. Çünki o dövrkü sovet bayraqlarının qırağında oraq-çəkic təsvir olunurdu.

Həmin filmdə bayraq bir də Genuya konfransı zamanı göstərilir. 1922-ci ildə beynəlxalq konfrans zamanı üçrəngli bayrağın görsənməsi marağa səbəb olur. Təbii ki, belə bir tarixi fakt yoxdur. Lakin həmin konfransda Azərbaycan cümhuriyyətinin xarici nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşovun həmin beynəlxalq toplantıda iştirakı faktdır. Belə güman etmək olar ki, filmdə bu fakta bir işarə ola bilər. Həmçinin Nəriman Nərimanovun başı üzərində üçrəngli bayrağın dalğalanması onun sanki müstəqil Azərbaycan cümhuriyyətini təmsil edən şəxs kimi də ortaya çıxarır.

Dövlət bayrağımızın nümayiş olunduğu ikinci film isə Rasim Ocaqovun 1974-cü ildə lentə aldığı "Qatır Məmməd"dir. Bu ekran işində bayraq Azərbaycan ordusunun təlim-məşqi zamanı göstərilir. Məşədi Göyüş (Ələddin Abbasov) və yanındakı silahlı bolşevik ordunun necə hazırlanmasını izləyirlər. Bu kadrlarda da cümhuriyyətin ordusu barədə təsəvvür yaranır. Lakin bayraq filmdə də çox da yaxşı görünmür.

Ssenari müəllifi Firudun Ağayev, rejissoru Ceyhun Mirzəyev olan "İşarəni dənizdən gözləyin" (1986) filmində isə üçrəngli bayraq hərbi-dəniz qüvvələrinin gəmilərin üzərində dalğalanır. Donamma komandanı Çingiz İldırımın naxələf fəaliyyəti barədə çəkilmiş bu filmdə cümhuriyyətin fəaliyyəti daha geniş şəkildə göstərilmişdir. Bu səbəbdən də üçrəngli bayraq daha yaxşı görünür. Belə ki, hökümət üzvləri öz aralarında mübahisə edən zaman üçrəngli bayraq göstərilir. Bu filmdə də təhrif var. "İşarəni dənizdən gözləyin" filmində bayrağımızın ay-ulduz hissəsi tərsinə göstərilir. Bu filmdəki bayraqla mesaj əsasən hərbi-dəniz qüvvəriylə bağlı olmuşdu. Film ekrana buraxıldıqdan cəmi iki il sonra milli-azadlıq hərəkatının başlanmasıyla üçrəngli bayrağımızı artıq hər kəs tanımağa başladı .

Bəhs edilən hər üç filmi izləyərkən üçrəngli bayrağın dalğalanması daha çox hərbi qüvvələrlə əlaqəli olduğunu görürük. Hərbi güc və bayraq müstəqilliyin əsas simvollarından biri hesab edilir. Məhz bu filmlərdə bayrağın bu şəkildə göstərilməsi müstəqillik şüurunun inkişafında istər-istəməz rol oynamışdır.

Ceyhun Mirzəli
Kinoşünas-yazar

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞININ ASILMA QAYDASI

Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin ikinci bəndində oxuyuruq:

"Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzununa nisbəti 1:2-dir ". Eləcə də, Konstitusiyanın 75-ci maddəsinin bir və ikinci bəndləri dövlət rəmzlərinə hər bir vətəndaşın hörmət göstərməsi, əks halda qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olması ilə yadda qalır.

Elm dünyasında bayraqların mənşəyini, tarixini, simvollarının mənasını öyrənən elmə veksillologiya deyilir. Bayraq istiqlaliyyət rəmzi olaraq tarix boyu xalqımızın yaratdığı dəyərlərdən biridir. Bayraqlar rənglərinə görə fərqləndirilərkən trikolor adlı təsnifat aparılır ki, dahi mütəfəkkir Əli bəy Hüseynzadənin ideyalarını təcəssüm etdirən bayrağımız da bu sinfə aid edilir. Məhz onun XX əsrin əvvəllərində çalışdığı "Həyat", "Füyuzat" kimi mətbu orqanlarda yazdığı məqalələrdə (məsələn "Türklər kimdir və kimlərdən ibarətdir") "tükləşmək, islamlaşmaq, avropalaşmaq" ideoloji modelindən sonralar Ziya Göyalp, Məhəmmədəmin Rəsulzadə kimi türk dünyasının maarifpərvər şəxsiyyətləri bəhrələnmişdir. Təsadüfi deyildir ki, 1915-ci ildə Məhəmmədəmin bəyin rəhbərliyi ilə fəaliyyətə başlayan "Açıq söz" qəzetində M.Rəsulzadə bu ideolo-

giyanın davamçısı kimi çıxış edirdi. Bu ideoloji model 1918-ci ilin 28 mayında Tiflisdə istiqlaliyyətini elan edən Azərbaycan Cümhuriyyətinin elə həmin ilin 9 noyabrında qəbul etdiyi qərarla özünü tamamlamış oldu. Əgər Əli bəy Hüseynzadə yaşadığı Osmanlı mühitinin təsiri ilə bu ideoloji modeli "islamlaşmaq, avropalaşmaq, türkləşmək" (yaşıl-qırmızı-mavi) şəklində tərtib etmişdisə, Məhəmmədəmin Rəsulzadə bu formulu müəyyən qədər dəyişərək müstəqil dövlətin – Azərbaycan Cümhuriyyətinin bayrağında mavi(türləşmək), qırmızı(avroplaşmaq), yaşıl(islamlaşmaq) şəklində sonlandırmışdır.

Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağının qəbulu zamanı bu barədə müzakirələr getmiş, son olaraq 1918-ci ilin 9 noyabrında mövcud qərar qəbul edilmişdir. Milliyyətçilik ideyalarının baş qaldırdığı həmin dövrdə ziyalılarımız ortaq fikrə gələrək qəbul ediləcək yeni bayrağın rənglərini mavi-qırmızı-yaşıl olaraq sıralamışdılar. Bununla başı tələtümlü dövlətimizin rəsmiləri General Tomsonun rəhbərliyində olan ingilis qoşunlarının təzyiqi ilə ikinci dəfə bayraq haqqında qanun qəbul edirdilər. Xatırladaq ki, Azərbaycan Cümhuriyyətinin 1918-ci ilin 21 iyununda qəbul edilən ilk bayrağı al-qırmızı fonda ağ rəngli aypara və səkkizguşəli ulduzdan ibarət idi. Bu bayraq Osmanlı sultanı III Səlim dövründən sultan Əbdülməcid dövrünə qədər, yəni, XVIII əsrin sonlarından XIX əsrin 50-ci illərinədək Osmanlı impreyiyasının dövlət bayrağı olmuşdur. Azərbaycan bayrağının köhnə Osmanlı imperiyası bayrağı ilə eyniyyət təşkil etməsi xarici dövlətlərin, xü-

susilə Böyük Britaniyanın istiqlaliyyətimizi tanımasına əngəl törədirdi. Bunu görən hökümət nümayəndələrimiz tarixi qərar qəbul etməklə Əli bəy Hüseynzadənin müəllifi olduğu ideyanı bayrağımızın rənglərində reallaşdırmış oldular.

İlk dəfə Nazirlər Şurasının binası üzərində (indiki Neft Şirkətinin binası) dalğalanan üçrəngli istiqlal bayrağımızın təsviri Cümhuriyyət dövrünə aid fotolarda, poçt markalarında yer almış, Əhməd Cavad, Cəfər Cabbarlı kimi şairlərin "Azərbaycan bayrağına" adlı şeirində, Üzeyir Hacıbəyovun "Azərbaycan" qəzetində yazdığı "Bir yaş" adlı məqaləsində (1919) öz rəmzi mənalarını ehtiva etmişdir. Təəssüf ki, ölkəmizin üzərini alan qara buludlar səbəbilə bu bayraq son olaraq 1920-ci ilin 3 mayında parlament binası üzərindən endirilir.

Fəaliyyətini mühacirətdə davam etdirən Məhəmmədəmin Rəsulzadə öz vətənini tərk edərkən ərsəyə gəlməsində öz qatqısının da, olduğu bu "yoxdan bir ideal rəmzi"ni – bayrağı bədəninə sarıyaraq özü ilə mühacirətə apardı. Onun rəhbərliyi ilə Türkiyədə nəşr edilən "Yeni Kafkasya" dərgisinin 28 may 1925-ci il buraxılışında, eləcə də müəllifi olduğu "Azərbaycan Cümhuriyyəti" (1923), Berlində almanca nəşr edilən "Azərbaycan problemi" adlı kitablarında (1938), Azerbaycan Külter Derneği Tüzüğü adlı jurnalın üz qabığında (1949) üçrəngli bayrağımız təsvir edilmişdir. Bəhs edilən nəşrlərdə bayrağın eyni fornada təsviri diqqəti cəlb edir. Şaquli formada təsvir edilmiş bayrağımızın rəngləri soldan sağa doğru yaşıl-qırmızı-mavi olaraq təsvir edilib. Bu, Azərbaycan Cümhuriyyəti döv-

ründə bayrağın şaquli vəziyyətdə nə cür asılması məsələsinə aydınlıq gətirmiş olur. Doğrudur Cümhuriyyət dövrünə dair hərbi medal eskizlərində bayrağımız şaquli vəziyyətdə təsvir edilərkən bunun əksini görə bilirik. Amma qeyd etməliyik ki, burada sadəcə bayrağın rəngləri sıralanmış, aypara və səkkizguşəli ulduza yer verilməmişdir.

XX əsrin sonunda ölkəmizdə müstəqillik meylləri ilk olaraq Naxçıvanda qanunla öz təsdiqini tapmış oldu. Belə ki, 1990-cı ilin 17 noyabr tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasına sədrlik edən Heydər Əliyev Ali Məclis adından qərar qəbul edərək üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi təsdiq etdi. Eləcə də, bu qərarla üçrəngli Dövlət bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi qəbul edilməsi Azərbaycan SSRİ Ali Sovetindən xahiş edilirdi. Bu xahiş özünü çox gözlətmədi. 1990-cı il 29 noyabr tarixində Azərbaycan SSRİ prezidentinin fərmanı ilə Azərbaycan SSR-nin adının və Dövlət bayrağının dəyişdirilməsi haqqında qərar qəbul edilir. Məhz bu fərmanı əsas tutaraq Ali Sovet 1991-ci ilin 5 fevralında Azərbaycan SSR-nin adını və bayrağını dəyişdirdi. Beləliklə, üçrəngli bayrağımız yenidən dövlət atributumuza çevrilmiş oldu. Bu qanunla üçrəngli bayraq yeni adla Azərbaycan Respublikası adlanan dövlətimizin suverenlik rəmzi hesab edilmiş olurdu. Elə həmin ilin 18 oktyabrında müstəqilliyini bərpa edən Azərbaycan Respublikası sovet təbliğatı ilə yuyulmuş beyinlərdə dövlət atributları haqqında dolğun məlu-

matlar yaratmaq üçün aktiv fəaliyyətə başladı. Yeni dərsliklər yazıldı, məlumat xarakterli broşurlar çap edildi.

Yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında bayrağın asılması haqqında qanunların hələ püxtələşmədiyi bir vaxtda Əbülfəz Elçibəyin Türkiyəyə etdiyi səfər zamanı (1992-ci il 1-5 noyabr) sinəsində daşıdığı üçrəngli bayrağı şaquli vəziyyətdə, soldan sağa doğru yaşıl-qırmızı-mavi sıralaması şəklində görürük. Bu, tarixi sərvətimiz olan bayrağımızın eynilə Azərbaycan Cümhuriyyəti dövründə olduğu kimi istifadəsinə verilən bir dəyərdir.

Bu dəyərləndirmə prezident Heydər Əliyevin hakimiyyəti dövründə özünü daha təkmil şəkildə göstərmiş olur. Belə ki, 1995-ci il 12 noyabrda qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına Dövlət bayrağı haqda maddələr daxil edilir, cəmiyyətdə vətənpərvərlik hisslərinin möhkəmləndirilməsi, dövlət atributlarına dərin hörmət hissinin aşılanması məqsədilə prezident Heydər Əliyev tərəfindən 1998-ci il 13 mart tarixində sərəncam imzalanır. "Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 25 mart tarixli 55 nömrəli qərarı qəbul edilsə də, burada Dövlət bayrağının şaquli vəziyyətdə divara bərkidilərkən və ya asılarkən hansı formada olması məsələsi hələki yer almamışdı. 2006-cı il 7 fevral tarixli prezident sərəncamı ilə ölkədə Heraldika Şurasının yaradılması mövcud çatışmazlıqların həlli üçün mühüm rol oynamış oldu. "Azərbaycan Respublika-

sı Dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı qaydaları"na dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 oktyabr 2003-cü il tarixində verdiyi 317 nömrəli qərarında nəzərdə tutulurdu:

"Azərbaycan Respublikası Dövlət bayrağı binanın divarına dirəksiz, şaquli çəkildikdə və ya şaquli vəziyyətdə xüsusi tutqaclara bərkidildikdə Dövlət bayrağının mavi zolağı qarşıdan baxılarkən sol tərəfə yerləşməlidir".

Verilmiş bu yanlış qərar ilə hərəkət edildiyi təqdirdə şaquli vəziyyətdə olan bayrağı üfüqi vəziyyətə gətirən zaman aypara və səkkizguşəli ulduz əks tərəfə istiqamətlənmiş olurdu. Nəhayət ki, 2018-ci il 21 iyun tarixli 271 nömrəli qərar ilə bu tarixi yanlışlıq aradan qaldırılmış oldu. Bu gün çox təqdir ediləsi haldır ki, Azərbaycan Respublikasının Dövlət bayrağı öz tarixi keçmişinə tam şəkildə qayıda bilib.

Təki tarixin müxtəlif dönəmlərində itirdiyimiz dəyərləri geri qaytarmağı bacaraq. Eyni üçrəngli İstiqlal Bayrağımız kimi.

Zahid Qasım
Tarixçi-yazar

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT BAYRAĞININ İSTİFADƏSİ QAYDALARI HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

M a d d ə 1 . **Azərbaycan Respublikasının Dövlət bayrağına hörmət göstərilməsi ilə bağlı vəzifələr**

1.1.Azərbaycan Respublikasının vətəndaşları, habelə Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Dövlət bayrağına hörmətlə yanaşmalıdırlar.

1.2.Azərbaycan Respublikası onun ərazisindən kənarda Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlərin qarşısının alınması məqsədilə beynəlxalq hüquq normalarına uyğun olaraq tədbirlər görür.

1.3.Azərbaycan Respublikası əhali arasında Azərbaycan Respublikası Dövlət bayrağının mahiyyətinin və əhəmiyyətinin geniş təbliğ olunması, gənc nəslin Azərbaycan Respublikasının Dövlət bayrağına hörmət ruhunda tərbiyə edilməsi məqsədilə tədbirlər görür.

M a d d ə 2 . **Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılmalı olduğu yerlər**

2.1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Prezident sarayının və dövlət iqamətgahlarının üzərində, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Məhkəmə-Hüquq Şurasının, mərkəzi icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Prokurorluğunun, Azərbaycan Respublikası Mərkəzi Bankının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikası Hesablama Palatasının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti orqanlarının binaları, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin yerləşdiyi binanın üzərində daimi qaldırılır.

2.2. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının binalan üzərində, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iqamətgahları üzərində beynəlxalq hüquq normalarına və diplomatik protokol qaydalarına uyğun olaraq qaldırılır.

2.3. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasına Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun

olaraq Azərbaycan Respublikasının gəmi reyestrlərindən birində qeydiyyata alınmış gəmilərin üzərində qaldırılır.

2.4. Azərbaycan Respublikasının Dövlət bayrağı - Azərbaycan Respublikasının sərhəd nəzarət-buraxılış məntəqələrinin və sərhəd zastavalarının binaları üzərində daimi qaldırılır.

2.5. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissə və hərbi gəmilərində aşağıdakı hallarda qaldırılır:

2.5.1.Azərbaycan Respublikasının bayram günlərində;

2.5.2.hərbi andiçmə mərasimində;

2.5.3.hərbi hissələrə və ya hərbi gəmilərə dövlət mükafatları təqdim edildikdə;

2.5.4.hərbi hissələr (bölmələr) və ya hərbi gəmilər xarici dövlətin ərazisində (ərazi sularında) olduqda.

2.6. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissələrində onların qərargahlarının binalarında, hərbi gəmilərində isə Hərbi Dəniz Qüvvələrinin gəmi nizamnamələrinə uyğun olaraq qaldırılır.

2.7. Xarici dövlətin bayrağı altında üzən gəmi Azərbaycan Respublikasının daxili sularında üzərkən və ya Azərbaycan Respublikasının limanında dayanarkən öz bayrağı ilə yanaşı, beynəlxalq dəniz adətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət bayrağını da qaldırmalıdır.

M a d d ə 3. **Azərbaycan Respublikası Dövlət bayrağının yerləşdirilməli olduğu yerlər**

3.1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Milli Məclisinin iclas salonunda, Azərbaycan Respublikası Prezidentinin iş otağında, habelə Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə rəsmi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan salonlarda və otaqlarda, Azərbaycan Respublikası məhkəmələrinin iclas salonunda, Azərbaycan Respublikası Milli Məclisi sədrinin, Azərbaycan Respublikası Baş nazirinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin, Azərbaycan Respublikası Baş prokurorunun, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları başçılarının, Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin, Məhkəmə-Hüquq Şurası sədrinin, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və

konsulluqlarının başçılarının iş otaqlarında daimi yerləşdirilir.

3.2. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikası Prezidentinin, dövlət nümayəndə heyəti rəhbərlərinin, xidməti vəzifələrini yerinə yetirərkən diplomatik nümayəndəliklərin və konsulluqların rəhbərlərinin nəqliyyat vasitələri üzərində yerləşdirilir.

3.3. Azərbaycan Respublikasının Dövlət bayrağı qanunvericiliklə müəyyənləşdirilmiş hallarda və qaydada andiçmə mərasimi keçirilən yerlərdə yerləşdirilir.

M a d d ə 4. **Azərbaycan Respublikası Dövlət bayrağının təsvirinin istifadəsi**

4.1. Azərbaycan Respublikası Dövlət bayrağının təsviri beynəlxalq uçuşları həyata keçirən Azərbaycan Respublikası mülki hava gəmilərinin və Azərbaycan Respublikasının hüdudlarından kənara uçuşlar üçün istifadə olunan hərbi nəqliyyat hava gəmilərinin üzərində vurulur.

4.2. Azərbaycan Respublikası Dövlət bayrağının təsviri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti sərhəd gəmilərinin və qayıqlarının fərqləndirici nişanı kimi istifadə olunur.

4.3. Azərbaycan Respublikası Dövlət bayrağının təsviri Azərbaycan Respublikasının dövlət mükafatlarının, habelə qanunvericiliklə nəzərdə tutulmuş hallarda rəsmi döş nişanlarının elementi kimi istifadə edilir.

M a d d ə 5 . **Azərbaycan Respublikası Dövlət bayrağının digər yerlərdə istifadəsi**

5.1. Azərbaycan Respublikasının Dövlət bayrağı yerli özünüidarə orqanlarının, qeyri-hökumət təşkilatlarının, müəssisələrin və idarələrin binaları, habelə yaşayış evləri üzərində qaldırıla (asıla) bilər.

5.2. Azərbaycan Respublikasının Dövlət bayrağı yerli özünüidarə orqanları, qeyri-hökumət təşkilatları, siyasi partiyalar, müəssisə və idarələr tərəfindən keçirilən tədbirlər zamanı qaldırıla (asıla) və ya yerləşdirilə bilər.

5.3. Dərs ilinin birinci günü təhsil müəssisələrində Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır (asılır) və ya yerləşdirilir.

M a d d ə 6 . **Azərbaycan Respublikası Dövlət bayrağının rəsmi tədbirlər zamanı istifadəsi**

6.1. Azərbaycan Respublikasının Dövlət bayrağı dövlət hakimiyyət orqanları tərəfindən keçirilən rəsmi tədbirlər və mərasimlər zamanı qaldırılır (asılır) və ya yerləşdirilir.

M a d d ə 7 . **Azərbaycan Respublikası Dövlət bayrağının matəm günlərində və matəm mərasimlərində istifadəsi**

7.1.Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən elan olunmuş matəm günlərində Azərbaycan Respublikası Dövlət bayrağının dəstəyinin və ya dirəyinin yuxarı hissəsinə eni 10 santimetr olan qara lent bərkidilir və (və ya) Dövlət bayrağı bayraq dirəyinin yarısına qədər endirilir.

7.2.Azərbaycan Respublikasının vəfat etmiş (həlak olmuş) vətəndaşlarına hərbi ehtiram göstərilməsi ilə bağlı Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

M a d d ə 8 . **Azərbaycan Respublikası Dövlət bayrağının digər bayraqlarla birgə qaldırılması (asılması) və ya yerləşdirilməsi**

8.1. Azərbaycan Respublikasının Dövlət bayrağı qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, müəssisə və idarələrin bayraqları ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, həmin bayraqların ölçüsü Azərbaycan Respublikası Dövlət bayrağının ölçüsündən böyük ola bilməz.

8.2. Azərbaycan Respublikasının Dövlət bayrağı digər dövlətlərin dövlət bayraqları, habelə beynəlxalq təşkilatların, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, müəssisə və idarələrin bayraqları ilə birgə qaldırılırsa (asılır-

sa) və ya yerləşdirilirsə, qarşıdan baxıldıqda, Azərbaycan Respublikasının Dövlət bayrağı həmin bayraqlardan solda olmalıdır.

M a d d ə 9. **Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsinə dair tələblər**

9.1. Azərbaycan Respublikasının Dövlət bayrağı və onun təsviri, onların ölçülərindən asılı olmayaraq, Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

9.2. Azərbaycan Respublikası Dövlət bayrağının sənaye üsulu ilə hazırlanması, düzəldilməsi, rəngli təsvirinin çapı zamanı onun mavi rənginin "Panton" rənglər kataloqunun Pantone 306C rənginə, qırmızı rənginin Pantone Red 032C rənginə, yaşıl rənginin Pantone 362C rənginə uyğunluğu təmin edilməlidir.

9.3. Azərbaycan Respublikasının Dövlət bayrağı bütöv olmalı və solğun görünməməlidir.

9.4. Azərbaycan Respublikasının Dövlət bayrağı ya bayraq dirəyi, ya da xüsusi tutqaclara bərkidilən dəstək üzərində qaldırılır.

9.5. Azərbaycan Respublikasının Dövlət bayrağı elə qaldırılmalıdır ki, onun parçasının aşağı tərəfi yerdən azı üç metr hündürlükdə olsun.

Maddə 10. **Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsinə dair məhdudiyyətlər**

Azərbaycan Respublikasının Dövlət bayrağı masaların və ya kürsülərin üstünə örtük kimi sərilə bilməz, oturulan və ayaq basılan yerlərə qoyula bilməz.

Maddə 11. **Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Azərbaycan Respublikası Dövlət bayrağının bu Qanunun tələblərinə zidd istifadəsi, habelə Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə səbəb olur.

Maddə 12. **Yekun müddəalar**

12.1.Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

12.2.Bu Qanun qüvvəyə mindiyi gündən 1991-ci il 5 fevral tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Əsasnamənin 3-cü, 4-cü, 6-cı və 7-ci bəndləri qüvvədən düşmüş hesab edilsin.

12.3.Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2004-cü il
№ 683-IIQ

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

Maddə 23. Azərbaycan dövlətinin rəmzləri

I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.

Maddə 75. Dövlət rəmzlərinə hörmət

I. Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir.

II. Dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

ŞEİRLƏR

AZƏRBAYCAN BAYRAĞINA

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır. Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.

Kölgəsində ay əyilib bir gözəli qucmada.
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşayor.
Düşündükcə zövqlərimi, vicdanımı oxşayor.
Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə söyləmək!
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yulduz da səkkiz hərli OD YURDU
Əsarətin gecəsindən flirsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur.
Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,
Yurdumuzu qucmuşdur!

Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!
Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

Cəfər Cabbarlı

AZƏRBAYCAN BAYRAĞINA

Türküstan yelləri öpüb alnını
Söyləyir dərdini sana, bayrağım!
Üçrəngin əksini Quzğun dənizdən
Ərməğan yollasın yara, bayrağım!

Gedərkən Turana çıxdın qarşıma,
Kölgən dövlət quşu, qondu başıma!
İzn ver gözümdə coşan yaşıma -
Dinlətsin dərdini aha, bayrağım!

Qayı Xan soyundan aldığın rəngi,
Qucamış Elxanla, müsəlman bəgi.
Elxanın övladı, dinin dirəgi,
Gətirdin könlümə səfa, bayrağım!

Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri!
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda Aya, bayrağım!

Əhməd Cavad

BAYRAQ

Torpağım üstünə kölgələr salan
Mənim varlığımın cilası-bayraq.
Zəfərdən doğulmuş
Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.
Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq-öz yurduma öz hakimliyim.
Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.
Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.
Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

Bəxtiyar Vahabzadə

BAYRAĞIM

Sən bayrağım! O yüksək şanlarınla enərkən,
Mavi göyə bir duman gəldiyini sezdim mən.
Qoynundakı ağ nurlu ay-yıldızın sönərkən
Üzərimə doğacaq günəşlərdən bezdim mən.

Al-yaşıllı bağında çiçəklərin solurkən
Sən enərkən ruhumdan bir inilti yüksəldi.
Hıçqırıqlar içində düşüyorkən, ölürkən
Məni tutub qaldıran xain, murdar bir əldi.

Yazıq səni, Bayrağım, endirdilər, eyləmi?
Səni yıxıb devirən o zəhərli ruzigar,
O haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar,
Yanar ocağımı da söndürdülər, öyləmi?

Bir röyamı oldu o gördüklərim həpisi?
Ürəklərə həp ölüm qorxuları çökdümü?
Yurdumuza ədalət… döndümü?
Bağlandımı üzünə türk elinin qapısı?

Aman, mənim bu yanıq fəryadımı dinləmə,
O əməlin, o parlaq ümidlərin sönməzdir.
Dönük üzlü, fələkdən heç şikayət eyləmə,
Haqqın qolu bükülməz, doğru üzü dönməzdir.

Tufan olsa yenə də, uca dağlar aşamaz,
Bir qaplanın dişləri, bir arslanın dırnağı,
Bir zalimin zülm əli, haqq çeynəyən ayağı,
Bir caninin qılıncı həşrə qədər yaşamaz.

Umugülsüm Sadıqzadə

KOMMUNİSTƏ İTHAF

Kommunist! Yurdumu buraxdın yetim,
Sanma ki, bununla ölər igidim.
Sənə baş əyməyən nasionalistim,
İstiqlalımın ilk qurbanı mən!

Səndə oraq varsa, mənim ayım var,
Oğuzdan aldığım altun yayım var,
Millət deyilən bir sarayım var,
Yaşıl diyarın göy pasibanı mən!

Əyilməz xalqımın milli bayrağı,
Gavurda qalamaz türkün toprağı,
Saçına dəyəməz rusun darağı,
Azəri qızının cananı mən!

M.Ə.Rəsulzadə

AZƏRBAYCAN BAYRAĞI

Sən, ey gözümün nuru,
Ürəyimin qüruru...
Sən, ey canımın canı,
qəlbimin iftixarı,
Sən, ey ucadan uca,
zirvələrin vüqarı...
Biri Qərb, biri Şimal...
qoşa qalam Şahdağı;
Azərbaycan bayrağı!

Şah nəğməm Xan Arazın,
dəli Kürün səsidir,
Halal ruzi Muğanın,
Milin müqəddəsidir,
Xəzərin gözəlliyi
Tanrının müjdəsidir,
Adın tək çox uludur
Vətənin pak torpağı;
Azərbaycan bayrağı!

Gün gələr Qarabağın
ağ edərsən baxtını,
Qaytar öz qüdrətinə
Xətainin taxtını!
Məğribdən Məşriqəcən
dalğalanan vaxtını,

Görüb, sevincim olsun
ömrümün ən xoş çağı;
Azərbaycan bayrağı!

Göyündə tarixlərin
zəfər çələngi vardır,
Qırmızında qanımın
zamanla cəngi vardır.
Yaşılında ruhumun
təmizlik rəngi vardır,
Səkkizguşəli ulduz,
hilaldır nur çırağı;
Azərbaycan bayrağı!

Süleyman Abdulla

Ədəbiyyat

1. "Azərbaycan Paris Sülh Konfransında" (1919-1920) Bakı, "Ozan", 2008.səh.

2. "Paris məktubları", Bakı, Azərnəşr, 1998, 120 səh.

3. Akademik Əliyev İ.H, Məhərrəmov E.Ə. Azərbaycan Respublikasının dövlət rəmzləri. Yenidən işlənmiş nəşr. Bakı, Nurlan, 2008. – 56 s.

4. Altunbay M. "Azadlığa uçan türk". Xatirələr. Türk dilində.
B, "Maarif" nəşriyyatı, 1994. 171 səh.

5. Aydın Mədətoğlu.Türkçülər.(Tarixi-siyasi-ideolji oçerklər) ORXAN" NPM, BAKI, 2015, 528 səh

6. Azər Turan. "Əli bəy Hüseynzadə: həyatı, mübarizəsi, yaradıcılığı və şəcərəsi" Letterpress, Bakı, 2014. 541 səh.

7. Azərbaycan bayraqları: Kataloq/Elmi red.: N.Vəlixanlı; Mətnin müəllifləri: N.Vəlixanli, Z.Dulayeva, S.Əhmədov, R. Səfərova; AMEA, Azərbaycan Tarix Muzeyi. Bakı: Elm, 2005. 88 səh.

8. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar). I cild. – Bakı, "Azərbaycan" nəşriyyatı, 1998. – 976 səh.

9. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyatı", 2004, 440 səh.

10. Azərbaycan Konstitusiyası

11. Bədirxan Əhmədli. Türkçülüyün üçlü formulu: nəzəri və tarixi aspektləri. Bakı, "Elm və təhsil", 2019, 288 səh.

12. C.P.Həsənli. Sovet dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939). Bakı, "ADİLOĞLU" nəşriyyatı – 2012, - 656 səh.**Çapar dərgisi. No.1. 8.12.2018**

13. Dilqəm Əhməd. Fərqlilər. Bakı: TEAS Press Nəşriyyat evi, 2015. – 216 s.

14. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, 480 səh.

15. Əzizə Şamil, Əli Şamil. Dissident sorağında (1956-1986). Bakı:"Elm və təhsil", 2018, 204 səh.

16. Göyalp Ziya. "Türkçülüyün əsasları". Azərbaycan dilində. Bakı, "Maarif" nəşriyyatı. 1991. 175 səh.

17. Həsənli S. Cümhuriyyət və hüquqi dövlət quruculuğu. Bakı: Azərbaycan, 2018. 407s.

18. X.C.İbrahimli. Azərbaycan mühacirət tarixi. ADPU nəşriyyatı Bakı – 2012. Səh 358.

19. Könül İmamverdiyeva. Azərbaycan Bayrağı. Dənizkənarı Bulvar İdarəsi. Bakı: 2017.

20. Qafarov V.V, Şükürov Q.E. Azərbaycan Cümhuriyyəti Tarixi. 1918-1920-ci illər. (Osmanlı arxiv sənədləri əsasında). – Bakı: Elmin İnkşafı Fondu, 2017. – 520 səh.

21. Qaraca, Aşırlı A, Istiqlal düşüncələri. Cumhuriyyətə aparan yollar. Bakı, "Zərdabi LTD" MMC, 2018, 384 səh.

22. M.İ.Əmrəhov. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. *Ali məktəblər üçün dərslik.* – Bakı: ADPU-nun nəşriyyatı, 2009.-371 səh. .

23. Məhəmməd Əmin Rəsulzadə. "Azərbaycan Cümhuriyyəti". – Bakı: Elm, 1990.-116 s.

24. Məhəmməd Əmin Rəsulzadə. Azərbaycan davası. – Bakı "Ay-ulduz" – 1998. 68 səh

25. Mühacirət irsimizdən: Məhəmmədəmin Rəsulzadənin otuz məktubu. Bakı, 2018, 136 səh.

26. Nasiman Yaqublu. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası. Bakı, QANUN nəşriyyatı, 2018, 832 səh.

27. Nasiman Yaqublu. Cümhuriyyət Qurucuları. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, 504 səh.

28. Nikpur Cabbarlı. Azərbaycan mühacirət nəsri. Bakı, "Elm və təhsil", 2011. 140 səh.

29. R.A.Əhmədli. Azərbaycan Milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı: "Elm" nəşriyyatı, 2007.

30. Yaqublu N. Azərbaycan legionerləri. Bakı: "Çıraq", 2005, 336 səh.

31. Ziya Gökalp. "Türkleşmük, İslamlaşmak, Müasırlaşmak". ÖTÜKEN Ekvaf-ı İslamiye Matbaası, İstanbul, Naşiri: Yeni Mecmua, 1918.

Azadlıq Hərəkatının fəalı, araşdırmaçı-yazar Paşa Yaqubun şəxsi arxivindən.

Azadlıq Hərəkatının fəalı, Ehtiyatda olan hərbiçi Mahir Nağıyevin şəxsi arxivindən.

Başkənd əməliyyatını həyata keçirən hərbi hissənin komandir müavini, ehtiyatda olan mayor Dilqəm Əliyevin şəxsi arxivindən.

Natiq Qasımovun yaxın dostu və silahdaşı, Mübariz İbrahimov adına rəsm qalereyisanın rəhbəri Namiq Əliyevin şəxsi arxivindən.

İnternet

http://karabakhinfo.com/fotofakt-5/

https://az.wikipedia.org/wiki/Ramil_Seferov

https://muxalifet.az/rsulzad-dedi-ki-bu-bayragi-vtn-kim-catdira-bilr.htmla

https://stm.az/publications/meqaleler/resulzadenin-plakat-altnda-tuyan-eden-siyasi-ekstremizle-ne-etmeli

https://www.facebook.com/ceyhun.nabi

Teleqraf.com/news/art/143332.html

Kitabın içindəkilər:

Ön söz 4
Üçrəngli, Milli bayrağımızın Şuşada dalğalanmağı diləyi ilə
Müəllifdən 8
Cümhuriyyətin elanı 9
Cümhuriyyətin ilk bayrağının elanı 11
Üçrəngli bayraq 15
Üçrəngli bayrağımızın ideyası və ideya müəllifləri 27
Azərbaycan bayrağı sovet illərində 39
Azərbaycan bayrağı mühacirətdə 51
Azərbaycan legionerlərinin üçrəngli bayraq altında fəaliyyəti 60
İkinci istiqlal 70
Meydanda ilk bayraq qaldiranlar 73
Bayraqdarlar 77
Üçrəngli bayrağımız bölgələrimizdə Göyəzən dağına sancılmış bayraq 79
Qarabağ müharibəsində (1992-1993) 84
Ramil Səfərov 92
Dövlət bayrağı meydanı 95
Azərbaycanda bayraq meydanlari və muzeyləri 98
Yaddaşlarda yaşayan üç rəngli Azərbaycan bayrağı . 103
Üçrəngli bayrağımız filmlərimizdə 110
Azərbaycan Respublikasının Dövlət Bayrağının

asılma qaydası 114
Azərbaycan Respublikası Dövlət Bayrağının
istifadəsi qaydaları haqqında
Azərbaycan Respublikasının qanunu 120
Azərbaycan Respublikasının Konstitusiyası..... 130

Şeirlər

Azərbaycan bayrağına..... 132
Azərbaycan bayrağına..... 133
Bayraq 134
Bayrağım 135
Kommunistə ithaf 136
Azərbaycan bayrağı 137
Ədəbiyyat..... 139

"Elm və təhsil" nəşriyyatının direktoru:
professor **Nadir MƏMMƏDLİ**

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı
Korrektor: Nuranə Carçı

Çapa imzalanmış 06.02.2020
Şərti çap vərəqi 9. Sifariş № 24
Kağız formatı 60x84 1/16. Tiraj 500
Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4